www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7-8 aprel 2018-ci il Şənbə № 74 (6963) Qiyməti 60 qəpik

Xəbər

**Xırdalanda 30 yaşlı qadın direktor müavini intihar etdi**

yazısı səh.2-də

Gündəm

**Seçkidən sonra Nazirlər Kabineti ləğv olunacaqmı...**



Politoloqlar NK-nın tamamilə ləğv olunaraq səlahiyyətlərinin birinci vitse-prezident institutuna verilməsini təklif edirlər

yazısı səh.5-də

**Qarşıdakı 7 ildə Azərbaycanın xarici siyasəti necə olacaq - Azərbaycan prezidenti "yol xəritəsini" açıqladı**

yazısı səh.3-də

**Regionda yeni ərəb siyasi ittifaqı formalaşır**

yazısı səh.6-da

**"Fransaya göndərilən notaya cavab gözləyirik" - Elmar Məmmədyarov**

yazısı səh.2-də

**"Düşmən ölkə cəhd etsə belə, hansısa bir şəhərimizi, mülkü əhalinin yaşadığı yeri vura bilməz" - ekspert Emil Həsənli**

yazısı səh.7-də

**Bakı Beynəlxalq Avtovağzal Kompleksi yenidən qurulur**

yazısı səh.10-da

**Çindən Azərbaycana Qarabağ dəstəyi - "Mövqeyimiz dəyişməzdir..."**

yazısı səh.13-də

**İşə götürənlər niyə bilik, bacarıq yox, gənc və gözəl kadr axtarır...**

yazısı səh.10-da

**Bakı və İrəvanın "4 günlük müharibə"dən sonrakı savaş göstəriciləri**

yazısı səh.13-də

**"Khazar" avtomobilləri "Made in Azerbaijan" brendi ilə yerli və xarici bazarlara çıxarılır**

yazısı səh.12-də

# "İSMƏT ABBASOVUN OĞLU HAKİMİYYƏTƏ QARŞI SABİQ NAZİRLƏRİN DƏSTƏSİNƏ QOŞULUB" - ŞOK İDDİA

Baş nazirin müavininin oğlu Yunis Abbasov barədə sensasion iddialar; onun sabiqlər - Mahmudov, Abbasov və Məmmədov klanına qoşulduğu deyilir; ölkəmizə qarşı Avropadan axıdılan gizli çirkabın başlanğıcı üzə çıxır...




yazısı səh.5-də

## Sərkisyan "vabank" gedir: kritik seçim, qapını döyən "Aprel+" savaşı

Ermənistanda baş nazir seçkisinə iki gün qalmış Brüsseldə müharibə perspektivi müzakirəyə çıxarıldı - "Qarabağ klanı" üçün bəd proqnozlar...

yazısı səh.7-də



**Türk ruhunun böyük və inadkar daşıyıcısı - Rəcəb Tayyib Ərdoğan**

yazısı səh. 8 və 9-da



*Elxan Şahinoğlu:*

**"Rus hərbi donanmasının Azərbaycan sərhədində yerləşdirilməsi Moskvanın rəsmi Bakıya xoş olmayan jestidir"**

yazısı səh.6-da



*İsfəndiyar Vahabzadə:*

**"...15 aydır işsizəm, bu yandan da deyirlər Bəxtiyar Vahabzadənin oğlu yağ-bal içində üzür"**

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 74 (6963) 7 aprel 2018



# Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını təbrik edi

**Prezident İlham ƏliyevAzərbaycanın pravoslav xristian icmasını Müqəddəs Pasxa bayramı münasibətilə təbrik edib. APA-nın məlumatına görə, təbrikdə deyilir:**

"Hörmətli həmvətənlər! Müqəddəs Pasxa bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm. Azərbaycanda tarixən mövcud olmuş etnik-dini tolerantlıq mühiti burada yüz illər boyu fəaliyyət göstərən səmavi dinlərin qarşılıqlı hörmət və etimada əsaslanan dinc yanaşı fəaliyyətini təmin edib, ayrı-ayrı etiqad və inanclara mənsub insanlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasında müstəsna rol oynayıb.

Bu gün dinlərarası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycan Respublikasında tarixi-mədəni irsin qorunub saxlanılması və təşviq edilməsi həyata keçirdiyimiz dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Zəngin multikultural dəyərlərə və tolerantlıq ənənələrinə malik müasir Azərbaycan cəmiyyətində xristian icmasının özünəməxsus yeri var. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycandakı mövcud demokratik-hüquqi şəraitdən və mütərəqqi dövlət-din münasibətlərindən yararlanan xristian həmvətənlərimiz öz etnik-dini xüsusiyyətlərini və adət-ənənələrini qoruyub yaşatmaqla, ictimai-siyasi həyatın bütün sahələrində fəal iştirak edir, ölkəmizdə gedən böyük tərəqqi prosesinə və vətəndaş cəmiyyəti quruculuğuna layiqli töhfələr verirlər.

Əziz dostlar! Hər il Azərbaycanda təntənə ilə qeyd etdiyiniz Pasxa bayramı əmin-amanlığın, həmrəyliyin, xeyirxahlıq və şəfqət duyğularının rəmzidir. Qoy bu əziz gün ailələrinizə sevinc, süfrələrinizə xeyir-bərəkət gətirsin. Bayramınız mübarək olsun!"

# MDB dövlət başçılarının görüşünün vaxtı məlum oldu

**MDB Dövlət Başçıları Şurası bu il sentyabr ayının sonunda Düşənbədə keçiriləcək. «Trend»in məlumatına görə, bunu Minskdə MDB Xarici İşlər Nazirləri Şurasının yekununda MDB İcraiyyə Komitəsinin sədri, qurumun baş katibi Sergey Lebedev deyib.**

S.Lebedev qeyd edib ki, bundan başqa, senyabrın 27-də MDB XİNŞ-in növbəti iclasının keçirilməsi qərara alınıb.

# İnfarkt keçirdiyi deyilən Fazil Məmmədov danışdı

**Fazil Məmmədov infarkt keçirməsi və ağır vəziyyətdə xəstəxanaya yerləşdirilməsi ilə bağlı yayılan məlumatlara münasibət bildirib. Bizimyolinfo.com-a danışan sabiq nazir barəsində yayılan məlumatla bağlı açıqlama verib: "Bunlar əsassız, yalan, uydurma məlumatdır. Mən infarkt keçirməmişəm. Səhhətim normaldı. Belə məlumatlar haradan, kim tərəfindən ötürülür, bilmirəm. Bununla neçənci dəfədir haqqımda yalan informasiya yayılır, bəsdirin artıq".**

Qeyd edək ki, a24.az-ın yaydığı məlumatda bildirilirdi ki, sabiq nazir Mərkəzi Gömrük Hospitalına yerləşdirilib. Sonrakı məlumatlarda isə iddia olunurdu ki, Fazil Məmmədovu Mərkəzi Gömrük Hospitalına deyil, Gəncə şəhərində yerləşən və onun özünə məxsus olan Gəncə Beynəlxalq Xəstəxanasına yerləşdiriblər.

❑ **E.HÜSEYNOV**
**"Yeni Müsavat"**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Qoşulmama Hərəkatı Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə etdi

## "Ölkələrin ərazi bütövlüyünə yönəlik bütün cəhdlərə qarşı etiraz davam etdiriləcək" - Bakı Bəyannaməsi

**"BMT qətnamələrinə uyğun olaraq biz ölkələrin ərazi bütövlüyü və milli birliyinin qismən və ya ümumi parçalanmasına yönəlik bütün cəhdlərə qətiyyətlə etiraz etməkdə davam edəcəyik. Bununla biz dövlətlərin suverenliyi, daxili işlərinə qarışmamaq, münaqişələrin sülh yolu ilə həllinə təhdidlərdən və güc tətbiqindən yayınmaq prinsiplərini davam etdirəcəyik".**




APA-nın məlumatına görə, bu, Qoşulmama Hərəkatının Bakıda keçirilmiş aralıq nazirlər konfransının yekununda qəbul edilmiş Bakı Bəyannaməsində əksini tapıb.

Bəyannamədə bildirilir ki, sivilizasiyalar arasında səmərəli dialoqu qurmaq məqsədilə 2008-də Azərbaycan tərəfindən başladılan "Bakı prosesi" mədəniyyətlərarası dialoqun inkişafı üçün açar platforma kimi dəyərləndirilir.

"Nazirlər təəssüflə bildirirlər ki, BMT-nin 4 qətnamə qəbul etməsinə baxmayaraq, Azərbaycan və Ermənistan arasında münaqişə həll olunmamış qalır və beynəlxalq və regional sülh və təhlükəsizliyə təhdid olaraq qalmaqda davam edir".

Bu barədə Qoşulmama Hərəkatının Bakıda keçirilmiş aralıq nazirlər konfransının yekun sənədində deyilir.

Sənəddə bildirilir ki, nazirlər BMT Xartiyasında qeyd olunan güc tətbiq etməmə prinsipinin vacibliyini də qeyd edirlər.

"Münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində danışıqlar yolu ilə nizamlanma yollarını axtarmağa çağırırıq", - deyə yekun sənədində vurğulanır.



# "Fransaya göndərilən notaya cavab gözləyirik"- Elmar Məmmədyarov

**"Azərbaycan həmişə Qarabağ separatçıları ilə digər ölkələrin rəsmi nümayəndələrinin görüşlər keçirməsinə dərhal reaksiya verir və nota göndərir".**

Bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov deyib.

XİN başçısı qeyd edib ki, separatçıların bu görüşləri ümumilikdə aşağı səviyyədə keçirilir:

"Məsələn, onlar ABŞ Konqresində görüşlər təşkil etməyə çalışdılar. Amma görüşə yalnız 5 nəfər gəldi, onlardan ikisi də etnik erməni idi. Hesab edirəm ki, bu görüş tamamilə nəticəsiz olub".

"Fransanın şəhərlərindən birinin merinin separatçıların nümayəndələri ilə görüşməsi ilə əlaqədar fransalı həmkarlarımıza etiraz notası göndərmişik. Hazırda onlardan cavab gözləyirik", - E.Məmmədyarov vurğulayıb.

# AVCİYA prezident seçkisinə dair aralıq hesabatını açıqladı

## "İctimai-siyasi vəziyyət, seçici fəallığı, qanunvericilik və digər amillər ölkədə demokratik, şəffaf seçkilərin keçirilməsinə tam imkan verir"

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) 11 aprel prezident seçkisi ilə əlaqədar Aralıq Hesabatı təqdim edib.**

Musavat.com xəbər verir ki, AVCİYA Seçki Qərargahının Aralıq Hesabatı 05 fevral-06 aprel 2018-ci il dövrü əhatə edir.

Hesabatda "İctimai-siyasi mühit", "Söz və mətbuat azadlığı", "Sərbəst toplaşmaq azadlığı", "Namizədlərin irəli sürülməsi, qeydə alınması", "Seçici siyahıları, Seçki administrasiyasının fəaliyyəti", "Təbliğat və təşviqat kampaniyası"nın monitorinqinin nəticələri öz əksini tapıb. Hesabatda həmçinin AVCİYA haqqında məlumat və AVCİYA tərəfindən aparılan KİV-in monitorinqinin nəticələri da yer alıb.

Monitorinqin keçirildiyi dövrdə - müstəqil qəzetlərdə seçki xəbərləri ümumi xəbərlərin 13,27%-ni, müstəqil teleqraf agentliklərində 13,65%-ni, iqtidar qəzetlərində 17,62%-ni, müxalifət qəzetlərində 9,84%-ni təşkil edib. Müstəqil qəzetlər içərisində "Bakı xəbər" qəzeti (51,67%), müxalifət qəzetlərindən "Yeni Müsavat" qəzeti (50%), iqtidar qəzetlərindən "Azərbaycan" qəzeti (50,82%) öz səhifələrində seçki xəbərlərinə daha çox yer ayırıblar. APA və TREND informasiya agentliklərinin bu sahədə göstəriciləri eynidir (50%)

Hesabatda qeyd olunur ki, seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı MSK-nın fəaliyyətini qənaətbəxş qiymətləndirmək olar. MSK-nın gördüyü bütün işlər fəaliyyət proqramında göstərilən müddətlərdə, vaxtında həyata keçirilib. MSK tərəfindən seçki maarifçiliyinə aid bir sıra tədbirlər həyata keçirilib, müxtəlif vəsaitlər, seçki plakatları çap olunaraq yayılıb. Prezidentliyə namizədlərin irəli sürülməsi və imzatoplama kampaniyası Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə həyata keçirilib və kənar müdaxilələr qeydə alınmayıb. Seçkilər ərəfəsində və seçkilər elan olunduqdan sonra sərbəst toplaşmaq azadlığı, söz və mətbuat azadlığı sahəsində hər hansı problemlər müşahidə edilməyib. KİV-in və jurnalistlərin fəaliyyətinə hər hansı müdaxilə və təzyiq faktları qeydə alınmayıb. Vətəndaş cəmiyyəti institutlarının seçki maarifçiliyi, seçkilərin monitorinqi və müşahidəsinə hazırlıq fəaliyyətlərinə, paytaxt və regionlarda seçicilərlə görüşlərinə və tədbirlərin təşkilinə hər hansı müdaxilə və əngəllər müşahidə edilməyib.

AVCİYA Seçki Qərargahının müxtəlif sahələrdə apardığı monitorinqin nəticələri göstərir ki, 11 aprel Prezident seçkiləri ərəfəsində ictimai-siyasi vəziyyət, seçicilərin fəallığı, mövcud qanunvericilik və digər amillər ölkədə demokratik və şəffaf seçkilərin keçirilməsinə tam imkan verir.

Hesabatın tam mətni ilə avciya.az saytından tanış ola bilərsiniz.

❑ **Musavat.com**

# Prezident seçkisi ilə əlaqədar aprelin 10-u "sükut günü"dür

**Aprelin 11-nə təyin edilən Azərbaycan prezidentinin seçkisi ilə əlaqədar aprelin 10-u, növbəti həftənin çərşənbə axşamı "sükut günü"dür.**

"Report" xəbər verir ki, Seçki Məcəlləsinə əsasən, səsvermə günü və ondan əvvəlki gün, yəni "sükut günü" hər hansı seçkiqabağı təşviqat aparmaq, mitinqlər təşkil etmək qadağandır.

Seçkiqabağı təşviqat aprelin 10-da saat 08:00-da dayandırılacaq.

Xatırladaq ki, Mərkəzi Seçki Komissiyası 8 nəfərin prezidentliyə namizədliyini qeydə alıb. Bunlar prezidentliyə namizədliyi hakim Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən İlham Əliyev, namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülən Qüdrət Həsənquliyev, namizədliyi Azərbaycan Sosial Demokrat Partiyası tərəfindən irəli sürülən Araz Əlizadə, namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası tərəfindən irəli sürülən Fərəc Quliyev, namizədliyi "Cəbhəçilərin təşəbbüs qrupu" tərəfindən irəli sürülən Razi Nurullayev, namizədliyi Müasir Müsavat Partiyası tərəfindən irəli sürülən Hafiz Hacıyev, öz təşəbbüsü ilə namizədliyini irəli sürən Zahid Oruc və namizədliyi Azərbaycan Demokrat Partiyası tərəfindən irəli sürülən Sərdar Məmmədovdur (Cəlaloğlu).

# Xırdalanda 30 yaşlı xanım direktor müavini intihar etdi

**Xırdalanda musiqi məktəbinin direktor müavini intihar edib. "Sputnik" xəbər verir ki, Abşeron rayon hüquq-mühafizə orqanlarından bildirildiyinə görə, aprelin 5-də günorta saatlarında Əhmədov küçəsi, 1 ünvanlı evin çardağında 1988-ci il təvəllüdlü Nərmin Elman qızı Ağalarova özünü asaraq intihar edib.**

Özünə qəsdin səbəbləri hələlik məlum deyil. Ağalarova Niyazi adına 22 saylı musiqi məktəbində direktor müavini vəzifəsində çalışırmış. Onun iki azyaşlı uşağı qalıb.

Fakt üzrə cinayət işinə başlanıb.

YENİ MÜSAVAT
N 74 (6963) 7 aprel 2018

**Azərbaycanda 11 aprel prezident seçkisindən sonra böyük ehtimalla ölkəyə daha 7 il rəhbərlik edəcək İlham Əliyevin atacağı addımlar, gərginləşən beynəlxalq münasibətlərdə ölkəmizin tutacağı mövqe, xüsusilə Rusiya ilə münasibətlər xüsusi maraq doğurur. Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində bu məsələlərə aydınlıq gətirib.**



# Qarşıdakı 7 ildə Azərbaycanın xarici siyasəti necə olacaq - Azərbaycan prezidenti "yol xəritəsini" açıqladı

## Prezident İlham Əliyev Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində daha nələri açıqladı?

**Prezident öncə vurğulayıb ki, Azərbaycan öz milli maraqlarına uyğun müstəqil siyasət yürüdür:** "Bir neçə il bundan əvvəl Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu, Birləşmiş Millətlər Təşkilatının üzvlərinin mütləq əksəriyyəti deməkdir. Bu onu göstərir ki, biz qısa müstəqillik dövründə dünyaya özümüzü böyük hörmət sahibi olan etibarlı ölkə kimi göstərə bilmişik. Biz xarici siyasətdə həmişə öz milli maraqlarımızı əsas götürmüşük və bu gün də belədir. Xarici siyasət daxili siyasətin davamıdır. O, daxili problemlərin həllinə kömək edir. Əlbəttə, mövqeyimiz həmişə belə olub ki, biz tərəfdaşlarımızla əlaqələrimizi qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə möhkəmlətməliyik və əməkdaşlıq yolu ilə daha sıx ünsiyyətə və qarşılıqlı anlaşmaya nail olmalıyıq. Düşünürəm ki, biz bunu edə bilmişik".

**Prezident onu da qeyd edib ki, Azərbaycanın ənənəvi tərəfdaşları ilə prinsipial xarakterli bir sıra məsələlər barəsində fikir ayrılıqları az deyil.** "Lakin bu, münasibətlərin başlıca, strateji xarakterini, bu münasibətlərin həm bizim üçün, həm də tərəfdaşlarımız üçün əhəmiyyətini görməyə və nəticəyə yönəlməyə mane olmur" - deyə İ.Əliyev əlavə edib.

**Prezident deyib ki, Azərbaycan beynəlxalq arenada böyük etimad qazanıb:** "Bizimlə razılaşmaya bilərlər. Lakin düşünürəm ki, bizə hörmət edir və etimad bəsləyirlər. Bir daha deyirəm, bizim milli maraqlarımız ondan ibarətdir ki, bütün ölkələrlə münasibətlərimiz yaxşı olsun, lakin bu, hansısa birtərəfli güzəştlər hesabına deyil, məhz konkret nəticələrə yönəlmiş səmərəli əməkdaşlıq siyasəti nəticəsində əldə edilməlidir. Məncə, bunun nəticəsi ondan ibarətdir ki, Azərbaycan həm müsəlman dünyasında çox güclü mövqeyə malikdir, həm də Avropa strukturlarında fəal iştirak edir və öz mənafelərini qoruyur. Bizim qonşularla çox yaxşı və sıx, mehriban münasibətlərimiz var, onlar da bizə yaxşı münasibət bəsləyirlər. Buna görə də bizim xarici siyasətimizdə hələ yaxşılaşdırılmalı və ya düzəliş edilməli olan istiqamətlər qalmayıb. Məncə, əsas vəzifə bu müsbət inkişaf vektorunu qoruyub saxlamaqdır. Azərbaycan həm regional, həm də qlobal əməkdaşlıq məkanına çevrilir. Biz də Rusiya və ABŞ ordularının baş qərargah rəislərinin görüşlərinin keçirilməsi məkanı kimi Bakının seçilməsi təklifini bizə hörmət və etimad əlaməti kimi qiymətləndirdik. Biz bunu həm də Azərbaycanın düzgün qurulmuş xarici siyasətinin daha bir elementi kimi qiymətləndiririk. Azərbaycan dünya birliyi tərəfindən çox etibarlı tərəfdaş, dost ölkə kimi qəbul edilir. Ölkəmiz beynəlxalq, regional və qlobal əməkdaşlığı təkcə bəyan etmir, həm də bu işdə konkret mühüm addımlar atır".

**Nəhayət, dövlət başçısı rusiyalı həmkarı Vladimir Putinlə münasibətlərinə toxunub:** "Bizim tez-tez baş tutan görüşlərimiz, ikitərəfli və çoxtərəfli formatda əlaqələrimiz ikitərəfli münasibətlərin, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə şərait yaradır. Bizim aramızda çox etimadlı münasibətlər var, bizdə qapalı mövzular yoxdur və bizim müdaxiləmizi tələb edən hər hansı məsələlər yarandıqda hökmən zəngləşirik və ya görüşürük və tabeliyimizdə olanlardan kiminsə yol verdiyi qüsurları tənzimləyirik. Bizim ikitərəfli münasibətlərin bu çox vacib amili dövlətlərarası əməkdaşlıqda mühüm rol oynayıb və yenə oynayır. Düşünürəm ki, çox cəhətdən bizim etimada əsaslanan şəxsi münasibətlərimiz və ölkələrimizin bir-biri üçün vacib olmasını anlamağımız sayəsində biz əməkdaşlığımızı strateji tərəfdaşlıq səviyyəsinə çatdırmağa nail olmuşuq. Bunu Rusiya da bəyan edir, Azərbaycan da.

Biz bir sıra məsələlər üzrə çox sıx qarşılıqlı əlaqə saxlayırıq. İqtisadi sahədə əmtəə dövriyyəsi artır, nəqliyyat, energetika sahələrində birgə layihələr həyata keçiririk".

**Prezident müsahibəsində Azərbaycanın ən ağrılı problemi olan Qarabağın işğalından, ordu quruculuğundan da danışıb.**

"Şübhəsiz, indiki vəziyyət istər Azərbaycan, istərsə də dünya birliyi üçün məqbul deyil. Xüsusən ona görə ki, vasitəçilik missiyası mandatına malik olan, Minsk Qrupunun həmsədrləri olan ölkələr - Rusiya, Fransa və ABŞ dövlət başçıları səviyyəsində birgə bəyanatlarında dəfələrlə bildiriblər ki, status-kvo qəbuledilməzdir və o, dəyişməlidir. Biz bu mövqeyə tamamilə şərikik və bu cür bəyanatları çox düzgün hesab edirik. Lakin biz konkret fəaliyyət gözləyirik. Bəyanatlar, əlbəttə, vacibdir, lakin bizə bu məsələnin tənzimlənməsi lazımdır", - deyə prezident Azərbaycanın sülh istədiyini bir daha vurğulayıb.

**Dövlət başçısı BMT Təhlükəsizlik Şurasının 20 il bundan əvvəl erməni qoşunlarının işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsini bir daha yada salıb:** "Bu qətnamələr öz qüvvəsini saxlayır və onlar yerinə yetirilməlidir. Lakin Ermənistan onları yerinə yetirməkdən imtina edir. Təəssüf ki, bu imtinaya görə Ermənistana qarşı heç bir sanksiya tətbiq edilməyib.

Ermənistan status-kvonu dəyişmək istəmir. Ermənilər sözdə danışıqlar aparmaq arzusunu bildirir, əslində isə danışıqları imitasiya etməklə məşğul olur və əllərindən gələni edirlər ki, siz demişkən, hər şey dairə boyunca təkrarlansın və bu prosesin sonu olmasın. Bu isə istər bizim üçün, istərsə də dünya birliyi üçün qəbuledilməzdir. Buna görə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan tərəfindən tezliklə yerinə yetirilməsi, Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə tezliklə başlanması, - axı təkcə Dağlıq Qarabağ deyil, həm də Azərbaycan SSRİ-nin Dağlıq Qarabağ Muxtar Vilayətinə heç bir aidiyyəti olmayan və olmamış 7 Azərbaycan rayonu da işğal altındadır, - münaqişənin mərhələli tənzimlənməsində birinci addım olmalıdır və münaqişə beynəlxalq hüququn normaları və prinsipləri əsasında həll edilməlidir".

**Dövlət başçısı Azərbaycan ordusunun uğurlarından söz açıb:** "Müxtəlif reytinqlər tərtib edən beynəlxalq ekspertlərin və təşkilatların hesablamalarına görə, bu gün Azərbaycan ordusu dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasına daxildir. Biz silahların yenilənməsi prosesini praktiki olaraq başa çatdırmışıq. Ordumuz həm hücum, həm də müdafiə xarakterli ən müasir, yüksək dəqiqliyə malik texnoloji silahlarla təchiz olunub. Biz silahları ən yaxşı istehsalçılardan alırıq və bu silahlar bizə özümüzü yetərincə inamlı hiss etmək imkanı verir. Təbii ki, təkcə silahlanma sayəsində güclü ordu yaratmaq olmaz. Buna görə, əlbəttə, ordumuzun döyüş qabiliyyətinin artırılması, intizamın möhkəmləndirilməsi üçün çox iş görülüb. Biz Silahlı Qüvvələrin maddi-texniki bazasını xeyli möhkəmlətmişik. Bizim bütün hərbi bazalarımızın və hərbi şəhərciklərimizin 80 faizindən çoxu əslində yenidən inşa edilib. Qarşıdakı illərdə biz maddi-texniki baza ilə bağlı prosesi tam başa çatdıracağıq. Təbii ki, qarşıdakı illərdə biz hərbi quruculuq işi ilə fəal məşğul olacağıq". Bu, dövlət başçısının yaxın 7 ildə münaqişənin həlli ilə bağlı həm Ermənistana, həm onun arxasında duran havadarlarına seçim imkanı verməsinin mesajı da sayıla bilər. Bu sözlərin diplomatik anlamada mənası budur ki, "ya işğaldakı torpağı azad edin, ya dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusundan biri olan Azərbaycan ordusuna cavab verin..."

**Silahların alınması məsələsinə gəldikdə isə prezident deyib ki, "bu iş daha böyük seçim əsasında, daha konkret aparılacaq, müvafiq məsələlərin həlli üçün həyata keçiriləcək". Dövlət başçısı Azərbaycanın silah ixrac edən ölkəyə çevrildiyini də xüsusi qeyd edib:** "10 il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Ona görə ki, o vaxta qədər biz hərbi məhsullar istehsal etmirdik. Bu gün isə belə məhsulları nəinki istehsal edir, həm də ixrac edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Bu məhsullar beynəlxalq standartlara uyğundur və bizim bir sıra göstəricilər üzrə idxaldan asılılığımızı azaldır, həmçinin yaxşı ixrac potensialı yaradır. Belə ki, Azərbaycan silah ixrac edən ölkəyə çevrilir".

❑ Musavat.com

YENİ MÜSAVAT
N 74 (6963) 7 aprel 2018

**Xalq şairi Bəxtiyar Vahabzadənin oğlu ilə kim həmsöhbət olmaq istəməz ki? Bu mənada Azərbaycanın Belarusdakı sabiq səfiri İsfəndiyar Vahabzadə redaksiyamıza telefon açıb "Sizin qəzetə danışmaq istəyirəm" deyəndə bunu sürpriz zəng olaraq qəbul etdik. Çöl-bayıra çıxmaqla o qədər də arası olmayan İsfəndiyar müəllimlə elə şəhərin mərkəzindəki mənzilində görüşdük. Əslində atası haqqında yazılara cavab vermək üçün bizləri arayan bu zəngin, kəşməkəşli həyat yolu keçmiş həmsöhbətimizlə bundan sonra elə onun keçdiyi yoldan, hazırkı durumundan, ata-anası ilə bağlı xatirələrindən, işsizliyindən danışdıq.**



# "Bunu Azərbaycanda bir, ya da iki adam bilir"

## İsfəndiyar Vahabzadə: "Hərbi zavodun açılışında Şahı 18 dəqiqə tərcümə elədim"

**"...15 aydır işsizəm, bu yandan da deyirlər Bəxtiyar Vahabzadənin oğlu yağ-bal içində üzür"**



*(əvvəli ötən sayımızda)*

***- İsfəndiyar müəllim, mən belə düşünürəm ki, Bəxtiyar Vahabzadə Azərbaycanın milli dəyərimizə çevrildiyi üçün onunla neqativ fikirlərə cavabı Vahabzadə ailəsinin üzvləri, İsfəndiyar müəllim, yaxud Azər müəllim verməməlidir, burada cəmiyyətin mövqeyi olmalıdır. Çünki Bəxtiyar Vahabzadə bir ailəyə sığan adam deyil, razılaşırsınız?***

- Mən cəmiyyətdən heç nə gözləmirəm (gülür). Üst-üstə 25 ildən artıq xarici ölkələrdə olmuşam. Amma həmişə ürəyim Azərbaycanla döyünüb. Mənimçün bir nömrəli kumir Anardır. Mən Anarın yaradıcılığı haqqında Belarus və Moldova universitetlərində mühazirələr də oxumuşam. Amma gündəmə gəlməkdən ötrü ağızlarına gələni yazırlarsa, bununla barışmaq olmaz.

***- Dediyiniz kimi, artıq 15 aydır işsizsiniz. Elə isə nə işlə məşğul olursunuz?***

- Qabaqlar hamı bədii ədəbiyyat oxuyurdu, sonra tarixi ədəbiyyat oxundu, sonra sənədli. Mənim zəngin kitabxanam var, ancaq siyasət aləmində ad çıxaran şəxsiyyətləri oxuyuram. Sosial şəbəkələrə demək olar ki, baxmıram. Çünki mənasız şeyləri yazan da çox olur. Demək olar ki, bütün günü kitab oxumaqla, idmanla məşğul oluram. Uzun müddət idmanla məşğul olmuşam.

***- Hansı növü ilə?***

- Qaydasız döyüşlə. Bu gün də məşğulam.

***- Neçə yaşınız var?***

- Neçə verərsiniz?

- 63.

- (Gülür) Bilirsiniz də. Amma həmişə formada olmağa çalışmışam. Maşın sürmürəm. Ümumiyyətlə, maşınım yoxdur, piyada gəzirəm. Həm də hər şey yaxındadır. Amma bütün günümü kitabla keçirirəm.

***- Yaxşı da qələminiz var. Hazırda nə yazırsınız?***

- Hərdən "525-də" çap olunuram, yəqin oradan oxumusunuz...Desəm, sizə qəribə gələr. O vaxt Əfqanıstandan qayıdandan sonra Bakı Şəhər Partiya Komitəsində işlədim, İcraiyyə Komitəsində sədr oldum. Sonra elə oldu ki, Xarici İşlər Nazirliyinə keçdim. Hələ sovet dövründə. Mən XİN-ə gələndə orda cəmi 9 nəfər işləyirdi. Bir-iki ay işlədikdən sonra Türkiyəyə, diplomatik təhsil almağa getdim. Çalışıram kölgə kimi görünüm, çox nəzərə çarpmayım.

***- Təqaüd yaşı çatmayan təcrübəli diplomatın, hətta bu yaşında qaydasız döyüşlə də məşğul olan bir şəxsin ikinci ildir işsiz-gücsüz qalması - özü də yaxşı diplomata ehtiyac olduğu bir zamanda - təəccüblü deyilmi?***

- Təəccüblüdür. Özü də çox. Bunu siz çox gözəl dediniz.

***- Bəxtiyar Vahabzadənin oğlu olmağın da üstünlüyü var...***

- Çox gözəl dediniz. Siz təsəvvür edin, idarəçilik, dövlətçilik çox ağır sahədir. Xahiş edirəm, bunu xüsusi qeyd edəsiniz. Mən İrana gedəndə Şah dövrü idi. Bizim zavodun açılışında Şahı 18 dəqiqə tərcümə elədim. 25 yaşım var idi. Sonra inqilab baş verdi...

Əfqanıstanda da çox çətin dövrdə işlədim, 1980-85-ci illərdə. Bütün bu təcrübələri toplayandan sonra mən gəldim Şəhər Partiya Komitəsində çalışdım, Ali Partiya Məktəbini, indiki İdarəetmə Akademiyasını bitirdim, özü də qırmızı diplomla. Türkiyədə təhsil alıb qayıdanda mən artıq diplomatiyanın cikini-bikini bilirdim. Özü də diplomatiya böyük sahədir. Sonra belə oldu ki, mən tam təsadüfən Mədəniyyət Nazirliyində Polad Bülbüloğlunun müavini işlədim. O zaman ulu öndərimiz dedi ki, İran, Əfqanıstan, Türkiyəni bilən bir mütəxəssis lazımdır. Vəfa Quluzadə dedi ki, Bəxtiyarın oğlu. Ulu öndər dedi ki, "dərhal gətirin". Mən gəldim. Göndərdilər, getdim, Pakistanda fövqəladə və səlahiyyətli səfir işlədim. Sonra elə oldu ki, vaxtım bitdi, məni göndərdilər İsveçrəyə. İsveçrədən qayıdandan sonra burada, Diaspora Komitəsində sədr müavini işlədim. Artıq diaspor işini bilirdim. Daha sonra Moldovaya getdim, orada isə 6 il işlədim. Eyni gündə sərəncamla geri çağırıldım və elə həmin gün Belorusa səfir göndərildim. Belorusda həm səfir işlədim, həm də Azərbaycanın MDB-dəki səlahiyyətli nümayəndəsi oldum. Təsəvvür edirsinizmi mənim tərcümeyi-halım nə qədər mozaikalı gedir?

***- Həqiqətən də maraqlıdır. Tam fərqli ölkələr, fərqli mühitlərdir.***

- Təcrübə nəzərə alınıb da.

***- Bütün bunların sonunda işsizlik.***

- Bəli, işsizlik.

***- Qayıdandan sonra nazir Elmar Məmmədyarovla görüşmüsünüzmü?***

- Yox. Axı mən XİN-dən yox, Diaspora Komitəsinin sədr müavinliyindən getmişəm. Yəni bir növ Məmmədyarova təbeçiliyim yoxdur. Cənab prezident məni təyin edir, sərəncamla da geri çağırır. Diaspora Komitəsində sədr müavini olanda da, təyinat alanda da, geri çağırılanda da bu, sərəncamla olub.

***- İşsiz qaldığınız bu dövrdə dövlətdən hər hansı təminatınız olmayıbmı?***

- Xeyr. Hələ təqaüd yaşım çatmır. Təsəvvür edin ki, elmlər doktoru, professor, İran inqilabının, Əfqanıstan müharibəsinin iştirakçısı, 4 ölkədə səfir, Səbayel rayon İcraiyyə Komitəsində sədr - o vaxt "26-lar" idi - iki nazirlikdə müavin, sonra da gəl, otur işsiz...

***- Yəni Əfqanıstan müharibəsinin iştirakçısı kimi də təqaüd almırsınız?***

- Xeyr. Bu yandan da deyirlər Bəxtiyar Vahabzadənin oğlu yağ-bal içində üzür.

***- Azər Vahabzadə təqaüddədir, eləmi?***

- Bəli. O, məndən 3 yaş kiçikdir. Amma prokurorluq sistemində təqaüdə bir az tez çıxırlar.

***- Bayaq nə yazdığınızı soruşmuşdum...***

- Mən 3 kitab, üstəlik, 4 elmi monoqrafiyanın müəllifiyəm. Əfqanıstandan qayıdandan sonra demək olar ki, bütün gecələri işləyirəm. Süleyman Rüstəmdən yazmışam. O da çox qəribə oldu. Material gətirmişdim və üzərində işləyirdim. Mənim mövzumun adı "Cənubi Azərbaycanda inqilabi azadlıq hərəkatının bədii nəsrdə inikası" idi. Dedilər ad yaxşı səslənmir. Dəyişdim, elədim "Süleyman Rüstəmin yaradıcılığında Cənubi Azərbaycan mövzusu". Bu mövzunu müdafiə elədim. Elmi rəhbərim də rəhmətlik Yaşar Qarayev idi. Əfqanıstana gedəndən sonra isə oraya apardığım materialları işləyirdim: "Məhəmməd Hadi və 20-ci əsr Azərbaycan romantizmi". Bu, çox ağır mövzudur. Mənim elmi məsləhətçim rəhmətlik Məmmədcəfər Cəfərov olub. Müdafiə elədim. Sonra harda işləmişəmsə, gedib dərs deyirdim. Namizədliyə görə 255 saat, doktorluğa görə 500 saat dərs deməlisən. Bütün günü çalışırdım, gecələr mühazirələrimi hazırlayırdım. Kitablarım var, bitirmişəm də, saxlamışam da. Atamla bağlı olan "Səfirin gündəliyi" adlı silsilə yazılar çıxdı. Atam rəhmətə gedəndən sonra silsilə yazılar yazdım. İndi bütün bunları saxlamışam, bir yazı üzərində işləyirəm: "İrandan başlanan yol".

***- Yaxın həyat yolunuzdan bəhs olunur...***

- Demək, 21 yaşında İrana getmişəm. 1976-cı ildə İran şahının qılıncının dalı-qabağı kəsən vaxtlar idi. Bütün bu inqilabı, Şahın qaçmasına qədər, baş nazir Doktor Şapur Bəxtiyarın taxta oturması və qaçmasına qədər, sonra Xomeyninin gəlməsinə, bizi qovmasına qədər hamısı orda əks olunacaq. Bunlar mənim gözümün qabağında baş verib... Demək olar ki, bunları Azərbaycanda bir, ya iki adam bilir, İran inqilabının canlı şahidi mənəm. Sonra artıq Moskvada da məni tanıyırdılar və Əfqanıstana çağırdılar. Əfqanıstana gedəndə ay yarım idi evli idim. Təsəvvür edin ki, o dövrdə Əfqanıstana gedən 100 nəfərdən 20-si sağ qayıtmırdı, o dövrdə mən orada oldum.

***- İranda, hərbi zavodda işləmək təşəbbüsü kimdən gəlmişdi? "KQB"dən?***

- Yox. Mən "KQB" məktəbini bitirməmişəm. 75-76-cı illərdə bizi Moskvaya çağırmışdılar. Mənim nitqim, yəni qüsursuz farsca, Tehran ləhcəsində danışmağım bunları cəlb elədi. Belə oldu ki, göndərdilər, getdim İranda işlədim. Orada tərcüməçi ehtiyacı var idi. Bizimlə gedənlər içərisində mülki də var idi, mənsə hərbiyə düşmüşdüm. Fars və rus dillərindən tərcümə edirdim. Azərbaycan dilində təhsil alan gərək rus dilini o səviyyədə bilsin ki, yuxarı dairələrdə tərcümə etmək iqtidarına malik olsun. Mən 1977-78-ci illərdə əvvəl Tehranda işlədim, sonra Əhvazda, daha sonra yenə Tehrana qayıtdım, ardınca da Məşhədə getdim. Bizim zavodun açılışına Rza Şah da gəlmişdi. Mən onu tərcümə elədim. Daha doğrusu, dəzgahları bir-bir göstərirdim. Hərbi təyinatlı bu zavodu ruslar qurmuşdular. 18 dəqiqə fasiləsiz danışdım. Mənim də sinəmdə yarlıq asılmışdı. Yazılmışdı: İsfəndiyar Vahabzadə. Şah baxdı, soruşdu ki, rus dilini harada öyrənmisən? Dedim bəndə əhli-Şuravi həstəm. Yəni mən Sovet İttifaqından gəlmişəm. Bir də baxdı ki, familiyam fars familiyası, adım da fars adı. "Xob" dedi.

***- Şahın devrilməsini necə xatırlayırsınız?***

- Şah 1979-cu il yanvarın 16-sında televiziyada çıxış etdi. Orda bir söz dedi ki, "İran mərizəst, Şahənşah həm mərizəst". Yəni "İran xəstədir, Şah da xəstədir". Dedi mən gedirəm müalicəyə. O vaxt Fərid Seyfülmilkov adlı jurnalist var idi. Mənə dedi gəlirəm, çıx evin qabağına. Görüşdük, dedi ki, sabah Şah gedir, hərbçiləri də aeroporta buraxırlar, kömək elə, onun şəklini çəkim. Elə oldu ki, biz çətinliklə içəri girə bildik. Çox yaxınlaşmağa qoymurdular. 50-60 metr kənarda dayanmışdıq. Bir gənc əsgər qaçaraq gəldi, özünü atdı Şahın ayaqlarına ki, "Şahənşah, bizi qoyub hara gedirsən?" O, bunu qaldırdı, dedi gedib yenə qayıdasıyam.

***- Yəni artıq Rza Məhəmməd Şah Pəhləvi İranı tərk edir?***

- Bəli, artıq Şah qaçır. Hamısı gedirlər. Həmçinin bütün sovet, Amerika mütəxəssisləri qaçırdı. Bircə biz, hərbi zavoddakı 61 nəfər qalmışıq. İçərilərində ən cavanı da mənəm, 26 yaşım var idi. Can şirin şeydir, hamı başının hayındadır. Taleyimiz necə olacaq, heç kim bir söz demir...

***- Bakı ilə, Bəxtiyar müəllimlə əlaqə yarada bilirdinizmi?***

- Bəxtiyar müəllim hər iki aydan, ay yarımdan bir zəng edirdi. İndiki kimi rahat deyildi axı. Sifariş verirdilər. Atam zəng etdi, calaşdırdılar. Dedim, ay ata, ola bilsin gəmi ilə bir həftəyə gəldim. Bütün şəhər od tutub yanırdı. Telefonda qırıq-qırıq səslər gəldi, danışmağa da imkan vermirdilər. Lakin elə oldu ki, gələ bilmədim. Biz 61 nəfər Tehranda qaldığımız yerdən başqa yerə köçdük. Mən də uzun saqqal saxlamışam, başımı da dibindən qırxdırmışdım ki, tanınmayım. Növbəti dəfə atam zəng edir, deyirlər belə bir adam yoxdur burada. Gündə də bir xəbər gəlir ki, biri öldü, biri qaçdı... Mən də xəbərsiz-ətərsiz İranı tərk elədim. Günün birində, 3-4 aydan sonra İrandan qovulduq Moskvaya, atama da zəng eləmədim. Təsəvvür edin, İrandan çıxmağa iki gün qalmış məlum oldu ki, həmin 61 nəfərin hamısı gözəl, ləhcəsiz farsca bilirmiş. Amma bilindirməyiblər. Mən də onlara tərcüməçilik edirəmmiş (gülür). Adam iki şeydə çaşır. "Mənim saatım evdə qalıb, indi saat neçədir?" O halda adam istər-istəməz qol saatına baxır. Bir də havanı soruşanda ixtiyarsız havaya baxırsan. Hə, onu da deyim. Mənə dedilər ki, sabah yox, birigün sən də gedirsən Ənzəliyə, oradan gedəcəksən evə. Onda limanın adı Pəhləvi idi. Elə oldu ki, hamını göndərdilər, mən qaldım. Soruşdular Vahabzadə kimdir? Dedim mən. Dedilər sən gedə bilməzsən Ənzəliyə. Səbəbi məlumdur. Azərbaycanlıyam və Azərbaycana gedə bilmərəm.

***- Nəhayət, gəldiniz Bakıya. İlk dəfə kiminlə görüşdünüz?***

*(davamı gələn sayımızda)*

**Elşad PAŞASOY, "Yeni Müsavat"**

Yeni MÜSAVAT

N 74 (6963) 7 aprel 2018

**Azərbaycanın siyasi səhnəsi xeyli genişlənib. Artıq bu səhnənin bir ucu Avropa ölkələrindədir. Siyasi, yaxud da qeyri-siyasi mühacirlərin sosial şəbəkələr vasitəsilə tərəf tutması və Azərbaycan iqtidarına qarşı aqressiv informasiya müharibəsi başlatması ictimai mühiti xeyli gərginləşdirib. Son günlər bir qədər səngisə də, ümumilikdə xarici ölkələrdə olan narazı azərbaycanlıların dilindən Azərbaycan hakimiyyətinə qarşı olduqca sərt, bir çox hallarda bütün əndazələri aşan ittihamlar səslənir.**




# "Vitse-primyer İsmət Abbasovun oğlu hakimiyyətə qarşı sabiq nazirlərin dəstəsinə qoşulub" - şok iddia

Baş nazirin müavininin oğlu Yunis Abbasov barədə sensasion iddialar; onun sabiqlər - Mahmudov, Abbasov və Məmmədov klanına qoşulduğu deyilir; ölkəmizə qarşı Avropadan axıdılan gizli çirkabın başlanğıcı üzə çıxır...

Ötən saylarımızda belə hücumların təşkilatçıları ilə bağlı hakimiyyətin araşdırmalara başlaması haqda məlumat vermişdik. Belə iddialar vardı ki, hücumların dəstəkvericiləri vaxtilə Azərbaycan hakimiyyətində olmuş şəxslər - baş nazirin sabiq 1-ci müavini Abbas Abbasov və sabiq nazirlər Ziya Məmmədovla Eldar Mahmudovdur. Başqa adlar da səslənir - Almaniyada mühacirətdə olan "Quska" ləqəbli Hüseyn Abdullayevin də bu prosesin mərkəzi fiquru olması məlumatları yayılmaqdadır. Bu haqda "Yeni Müsavat"ın ötən saylarından birində "Mahmudov, Abbasov, Məmmədov hakimiyyətə qarşı birləşib?" sərlövhəli yazıda məlumat vermişdik.

Redaksiyamıza bu qəbildən olan daha bir xəbər daxil olub. İddia edilir ki, hakimiyyətə qarşı hücumlarda yer alanlar sırasında elə bu gün hakimiyyətin içində olan şəxslər, onların yaxınları da var.

İlk dəfə prezidentliyə namizəd Hafiz Hacıyevin dilindən səslənən, sonra isə daha geniş yayılan iddialara görə, Avropadakı "narazı və nadic vətəndaşlarımız"la təmasları olanlardan biri də baş nazirin müavini İsmət Abbasovun oğlu, Böyük Britaniyada yaşayan iş adamı Yunis Abbasovdur. Hafiz Hacıyev və digərləri bu prosesdə onun hansı rol aldığını konkret söyləməyib. Lakin təxmin etmək mümkündür ki, bu gəncin antiiqtidar kampaniyasında maliyyəçi qismində rol aldığı iddia edilir. "Yeni Müsavat"a daxil olan başqa bir məlumatda bildirilir ki, nazirin oğlu prinsipcə, mövcud hakimiyyətdən narazıdır: "Yunus Abbasov birbaşa olmasa da, dolayısı ilə xaricdəki narazı kəsimə dəstəyini əsirgəmir".

**Atası 2004-cü ildən 2013-cü ilə qədər kənd təsərrüfatı naziri vəzifəsində olmuş, bu vəzifədən azad ediləndən dərhal sonra baş nazirin müavini təyin edilmiş birisinin indiki iqtidardan narazılığının səbəbləri nədir?**

**Bu suala ötənlərdə mətbuatda yer alan məqalələrdə aydınlıq gətirən məlumatlara rast gəlinir. Həmin məqalələrdən birində deyilir.**

**Sitat:** "Yunis Abbasov Azərbaycan vətəndaşı deyil, bu ölkənin Silahlı Qüvvələrində xidmət etməyib və etməyəcək, itirilmiş torpaqlarımızın azad olunmasında da iştirak etməyəcək. Yeri gəlmişkən, İsmət Abbasovun övladları diasporumuzun Londonda təşkil etdiyi Azərbaycanın xeyrinə olacaq heç bir tədbirdə iştirak etməyiblər. Bəli, İsmət Abbasov Əliyevlər iqtidarının yüksək rütbəli məmurlarının bariz nümunəsidir. Bunlar üçün Azərbaycan, Vətən, doğulub böyüdüyü torpaq müqəddəs deyil, hətta üzvü olduqları Əliyevlər komandası da müvəqqətidir, təhlükə yaranan kimi qoyub qaçmaq olar. Onlar üçün əsas xalqımızı zəlil günə qoyub taladıqları var-dövlətin taleyidir. İqtidar nümayəndələri yeri gəldi-gəlmədi, özlərini hamıdan çox vətənpərvər, millətçi göstərmək istəyirlər".

Yayılan son məlumatlarda iddia edilir ki, Yunis Abbasov əvvəllər Azərbaycanda iş sektorunda çalışmağa cəhd edib. Lakin ona maneçiliklər törədilib. Odur ki, ölkəni tərk edərək Böyük Britaniyada məskunlaşıb, orada öz biznesini qurub. Onun Böyük Britaniyada iş qurması üçün gərəkən ilkin kapitalı haradan əldə etməsi haqda məlumatlar olmasa da, böyük ehtimalla Yunis Abbasov işə başlamaq üçün banklara baş vurmayıb. İllərdir nazir olan atasının sərvətindən bir ovuc götürüb və işə başlayıb. O, ilk dəfə Azərbaycan mətbuatının gündəminə illər öncə Londondakı mülkləri ilə gəlmişdi. O dövrdə atası İsmət Abbasov hələ kənd təsərrüfatı naziri idi. Yayılan məlumatda deyilirdi ki, Yunis Abbasov hələ 2006-cı il, sentyabrın 1-də Londonun dəbdəbəli Doklands məhəlləsində çoxmənzilli 2 mərtəbədən ibarət böyük və lüks bir penthaus malikanə alıb. Nazir oğlu bu mülk üçün hələ o zaman 1,4 milyon funt-sterlinq ödəyib. Yunis Abbasov da həmin məlumatı təkzib etməmişdi. Demişdi ki, mülkü 2006-cı ildə alıb: "Bəli, həqiqətən də həmin mənzil mənə məxsusdur. Amma iddia olunduğu kimi binanın 2 mərtəbəsində deyil, 1 mərtəbəsində yerləşən normal şəraiti olan bir mənzildir", - deyə Yunis Abbasov söyləmişdi. Londonda ev almalarını bacısının xəstəliyi və əməliyyatına görə ailəsinin tez-tez Böyük Britaniyaya getməsi ilə izah etməyə çalışmışdı. Demişdi ki, atası həmin dövrdə Azərbaycana gələn, burada iş qurmaq istəyən neft şirkətləri ilə Böyük Britaniyada tanış olub və dostluq əlaqələri qurub. Onların məsləhəti və vasitəçiliyi ilə Londonda ev alıb.

Yunis Abbasov mənzilin alınmasının Böyük Britaniya qanunlarına tam uyğun həyata keçirildiyini də əlavə etmişdi.

İlkin kapital məsələsinə də belə aydınlıq gətirməyə çalışmışdı: **"2006-cı ildə alınan mənzilin puluna gəlincə, o 1991-ci ildən sahib olduğumuz və baha qiymətə satılmış evin vəsaiti ilə alınıb. Bura bizim Londonda olmadığımız təxminən 10 ildə toplanmış icarə haqqı da daxildir. Bunları üst-üstə gələndə, mənzil alınandan sonra mənim ilk biznesə başlamağım üçün əlavə vəsait də yaranmışdı".**

Yunis Abbasov gördüyü işlərdə atasının rolunun olmadığını da sübut etməyə çalışmışdı.

Yada salaq ki, iqtidarın önəmi bir fiquru bu günlərdə bəyan etdi ki, 2013-cü il prezident seçkiləri öncəsi Azərbaycana qarşı bir çox təzyiqlər olub. O, xüsusi olaraq vurğulayıb ki, həmin qüvvələr yenidən aktivləşib. Belə görünür ki, sabiq və indiki iqtidarda yer alan nazirlər də özlərinin umu-küsülərini həmin qüvvələrə dəstək verməklə biruzə verirlər. Azərbaycanda keçiriləcək seçkilərə isə 1 həftədən də az vaxt qalır. Bu günlərdə daha kimlərin adı hakimiyyətə qarşı savaşda hallanacaq sualı da açıqdır.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**



# Seçkidən sonra Nazirlər Kabineti ləğv olunacaqmı...

Bir sıra tanınmış politoloqlar Nazirlər Kabinetinin tamamilə ləğv olunaraq səlahiyyətlərinin birinci vitse-prezident institutuna verilməsini təklif edirlər

**Nazirlər Kabinetinin daha bir səlahiyyəti əlindən alınıb. Belə ki, qurum "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nda dəyişiklik edib. Əgər əvvəllər dövlət büdcəsinin icrası prosesində dövlət büdcəsinin yerli gəlir və xərclərinin tənzimlənməsi üçün cari ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitin məbləği Nazirlər Kabineti tərəfindən 20 faizədək artırıla və yaxud yerli gəlirlərin proqnozuna nisbətən əlavə daxil olan vəsait qədər azaldıla bilərdisə, dəyişikliyə əsasən, artıq bu halda hökumət prezidentlə razılaşdırmaqla bu addımı ata bilər.**

Həmçinin mövcud qaydaya görə, dövlət büdcəsinin icrası prosesində iqtisadi təsnifatın müvafiq bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələrində nəzərdə tutulmuş birdəfəlik təyinatlı vəsaitlər üzrə hesabat ili ərzində yaranmış qənaət NK ilə razılaşdırmaqla dövlət büdcəsinin Ehtiyat Fonduna yönəldilərək, il ərzində digər tədbirlərin maliyyələşdirilməsinə sərf edilə bilərdisə, dəyişikliklə bu sahədə də NK-nın səlahiyyəti ləğv olunub.

Qeyd edək ki, bundan əvvəl də Kabinetin bir sıra səlahiyyətləri alınmışdı. Bu proses cəmiyyətdə qurumun ləğv olunacağı ilə bağlı müzakirələrə səbəb olub. Bir sıra tanınmış politoloqlar NK-nın tamamilə ləğv olunaraq səlahiyyətlərinin birinci vitse-prezident institutuna verilməsini təklif edirlər. Bir qrup ekspert isə qurumun ləğvini deyil, ciddi dəyişikliklər aparılmaqla dinamik bir struktura çevrilməsinin tərəfdarıdır.

**İqtisadçı-ekspert Natiq Cəfərliyə görə, sərt prezident üsul-idarəsi olan ölkələrdə NK olmur:** "Yəni belə bir quruma ehtiyac qalmır. Azərbaycanda son referendumdan bəri qarışıq bir sistem mövcuddur. Anlaşıqlı deyil ki, səlahiyyət bölgüsü necə olacaq. Çünki artıq referendumda qəbul olunmuş vitse-prezidentlik institutu var. Ona görə də çox qarışıq bir sistem yaranıb. Nazirlər Kabineti doğrudan da analitik bir quruma çevrilməkdədir. Vitse-prezidentlik institutları yaradılacaq və prezidentin birbaşa idarəçiliyi altında ayrı-ayrı sahələrə nəzarət edəcəksə, o zaman Nazirlər Kabinetinin funksiyası nədən ibarət olacaq - bu, anlaşılmır. Ona görə də sərt vertikal üsul-idarəsi olan respublikalarda Nazirlər Kabinetinin yeri olmur. Məsələn, Amerika kimi ölkədə Nazirlər Kabineti formatında bir qurum yoxdur. O boyda dövlətdə 15 federal nazirlik var. Bizdə isə nazirlik və nazirlik statusunda olan dövlət qurumlarının sayı 40-dan yuxarıdır. Azərbaycan kimi kiçik ölkə üçün bu, həddən artıq çoxdur. Eyni zamanda paralel strukturlar mövcuddur. Məsələn, "ASAN xidmət" yaradıldı, onun icra etdiyi funksiyalar bir sıra dövlət qurumlarında da qalıb".

**N.Cəfərli, ümumiyyətlə, Azərbaycanda parlamentli respublikanın yaradılmasının tərəfdarıdır:** "Bu respublikada Nazirlər Kabineti geniş funksiyaları olan əsas quruma çevrilməlidir. Lakin reallıq budur ki, artıq bizdə oturuşmuş prezidentlik üsul-idarəsi var. Çox böyük səlahiyyətləri olan prezidentlik üsul-idarəsi varsa, o zaman Nazirlər Kabinetinin yeri görünmür bu sistemdə. Birinci vitse-prezidentlə bağlı hər şey aydındır: səlahiyyət və funksiyaları qanunlarda əksini tapıb. Lakin digər vitse-prezidentlərlə bağlı belə aydınlıq yoxdur. Onlarla bağlı say məhdudiyyəti də nəzərdə tutulmur konstitusiyada. Bu halda onlar da təyin olunacaqsa, onlar müxtəlif sahələrdə icra strukturlarının başında dayanacaqlarsa, bu zaman nazirlər nə edəcək, Nazirlər Kabineti nə işlə məşğul olacaq? Düşünürəm ki, 11 aprel seçkilərindən sonra əsas müzakirə mövzusu məhz bu suallar ətrafında olmalıdır. Bu məsələdə həlledici söz, əlbəttə, prezidentə məxsus olacaq".

**Natiq Cəfərli:** "...Ən ciddi müzakirələr bu məsələ ətrafında olmalıdır"

**Vüqar Bayramov:** "Vitse-prezidentlik institutu gücləndirilməlidir"

**Ekspertin fikrincə, son qərarı da nəzərə almaqla, seçkilərdən sonra Nazirlər Kabinetinin kiçildilmiş və daha aşağı səlahiyyətli quruma çevriləcəyi daha realdır:** "Onun tamamilə ləğv olunacağını gözləmirəm. Bu qurum konstitusiyada nəzərdə tutulan qurumdur. Onun ləğv olunması üçün yenidən referendum keçirilməlidir. Düşünmürəm ki, seçkilərdən dərhal sonra yenidən referenduma gedilsin".

**İqtisadçı-ekspert, Sosial İqtisadi İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov məsələnin konstitusiyaya uyğun həll olunmasının gərəkdiyini deyir:** "Amma bütövlükdə götürdükdə, ölkədə vitse-prezidentlik institutu yaradılıbsa, idarəetmə sistemi ona uyğunlaşdırılmalıdır. Müasir dünyada vitse-prezidentlik institutunun fəaliyyət göstərdiyi ölkələr var. Həmin ölkələrdə Nazirlər Kabinetinin fəaliyyətinə ehtiyac azalır. Azərbaycanda da vitse-prezidentlik insititutunun gücləndirilməsinə ehtiyac var. Bu, həm də islahatların səmərəliliyini artırmaq, çevikliyi təmin etmək baxımından zəruridir. Hazırda ölkədə mövcud olan dövlət qurumlarının fəaliyyətinin çevik əlaqələndirilməsinə, sistemli fəaliyyətlərin həyata keçirilməsinə ehtiyac duyulur. Bu gün ayrı-ayrı dövlət qurumlarının, bütövlükdə hökumətin fəaliyyətini qiymətləndirən zaman bizim ən çox təklif etdiyimiz məqamlardan biri dövlət qurumlarının fəaliyyətinin effektiv əlaqələndirilməsidir. Ona görə də belə bir əlaqələndirmənin yaradılması üçün vitse-prezidentlik institutunun gücləndirilməsinin, iqtisadi islahatlara nəzarətin bu instituta verilməsinin tərəfdarıyıq".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 74 (6963) 7 aprel 2018

**Rusiya Xəzərdəki hərbi təlimlərinin miqyasını getdikcə genişləndirir. Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Xəzər donanmasının Həştərxandan Dağıstanın Kaspiysk şəhərinə köçürüləcəyini açıqlaması məsələni daha da ciddiləşdirib. Şimal qonşumuzun bu addımları hər bir Xəzəryani ölkə kimi Azərbaycanı da ciddi narahat edir.**

# Rusiya Xəzər uğrunda mübarizəni gücləndirir - nə etməliyik?

## Elxan Şahinoğlu: "Hərbi donanmanın Azərbaycan sərhədində yerləşdirilməsi Moskvanın rəsmi Bakıya xoş olmayan jestidir"


Elxan Şahinoğlu

Xüsusilə "Komsomolskaya Pravda" qəzetinə müsahibə verən ehtiyatda olan rusiyalı polkovnik Viktor Baranetsin Rusiyanın Azərbaycana istiqamətləndiyini dilə gətirməsi, bu bölgənin gələcəkdə baş tutacaq enerji resursları uğrunda mübarizənin əsas meydanlarından birinə çevriləcəyini deməsi, Rusiya Baş Qərargahının artıq bu planlara bələd olduğunu, ona görə də Azərbaycan sərhədlərində möhkəmləndiyini vurğulaması narahatçılığı artırıb.

Görünən odur ki, Kreml Qərb dünyasının bölgəyə təsirini tamam aradan qaldırmağın yolu kimi hərbi təlimləri görür. Artıq bir neçə gündür ki, Rusiyanın Cənub Hərbi Dairəsində fəaliyyət göstərən 62-ci ordusu təlimlər keçirir. Ekspertlər Amerika başda olmaqla, Qərb ölkələri tərəfindən ciddi təzyiqlərlə, hədələrlə üzləşən Rusiyanın təlaşının təsadüfi olmadığını qeyd edirlər. Xəzər donanmasının Həştərxandan Dağıstanın Kaspiysk şəhərinə köçürüləcəyi təqdirdə Rusiyanın Xəzərin tamhüquqlu sahibinə çevriləcəyi deyilir. Xəzərdə marağı olan Amerikanın seyrçi qalmayacağı və sona qədər Rusiyanı buradan sıxışdırmaq cəhdləri edəcəyi şübhəsizdir. Belə bir durumda Azərbaycanın hansı siyasətə üstünlük verməsinin vacibliyi ilə bağlı mövqelər də müxtəliflik təşkil edir.

**Qərb Universitetinin Təbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu mövcud durumdan narahatlığını gizlətmədi:** "Günün əsas aktual sualı budur ki, Rusiya Xəzər donanmasını kimə qarşı gücləndirir və hərbi bazanı niyə Həştərxan şəhərindən Dağıstana köçürür? Rusiya Hərbi Dəniz Donanmasının keçmiş qərargah rəisi, admiral Viktor Kravçenko deyib ki, "bizim Xəzərdə güclü yumruğumuz olacaq. Bütün qüvvələr bir yerdə cəmləşəcək və donanma hava şəraitindən asılı olmayacaq". **Generalın sözləri başqa bir sualı da aktuallaşdırır:** rusiyalı generalın dediyi bu yumruq kimə qarşıdır? Rusiya Xəzəri sülh hövzəsi adlandırıb. Rusiyadan başqa 4 Xəzəryanı ölkə var - İran, Türkmənistan, Qazaxıstan və Azərbaycan. Rusiyanın hər 4 dövlətlə tərəfdaşlıq münasibətləri var, yeni münasibətlərdə heç bir problem yoxdur. Digər tərəfdən, Xəzərə 5 dövlətdən başqa heç bir kənar dövlətin hərbi gəmisi gələ bilməz. Çünki Xəzər qapalı dənizdir, hətta qapalı göl adlandırırlar. Yəni əgər Rusiya Xəzərdə rəqib saydığı ABŞ və NATO-nun varlığından ehtiyat edirsə, bu, fiziki olaraq mümkün deyil. Rusiya 2015-ci ildə Suriyada İŞİD mövqelərini Xəzərdən "Kalibr" qanadlı raketləri ilə vurdu. Əslində Rusiyanın buna ehtiyacı yox idi, həmin terrorçuları onsuz da hərbi təyyarələrlə bombalayırdı. Sadəcə, Rusiya həm Qərbə, həm də Xəzərsahili ölkələrə öz gücünü nümayiş etdirmək istəyirdi. Xəzəryani ölkələrdən heç biri Rusiyanın nədən dənizdəki hərbi gücünü artırmasıy ilə bağlı sual səsləndirmir. Görünür, Moskvanın sərt reaksiyasından ehtiyat edirlər. Ona görə də bu dövlətlər Rusiyanın Xəzərdəki hərbi qüdrətini artırmasına bundan sonra da etiraz etməyəcəklər. Beləliklə, Rusiya Xəzəri sülh hövzəsi elan etsə də, Xəzərdə hərbi potensialını artırır. Hərbi donanmanın Azərbaycan sərhədində yerləşdirilməsi də Moskvanın rəsmi Bakıya xoş olmayan jestidir. ABŞ-ın Xəzərdə hərbi varlığı olmasa da, Xəzərin təhlükəsizliyi ilə bağlı Bakı ilə sıx əməkdaşlıq edib və müxtəlif illərdə Azərbaycana Xəzərdə enerji infrastrukturlarının mühafizəsi üçün hərbi katerlər verib, sualtı xüsusi təyinatlı qüvvələr hazırlanmasında iştirak edib. Görünür, bu faktor da Rusiyanı narahat edib. Ancaq ABŞ-ın Azərbaycana verdiyi kiçik tutumlu katerlər Rusiyaya heç bir təhlükə törətmir. Rusiyanın Xəzərdə hərbi dəniz donanmasını gücləndirməkdə bir başqa marağı da var. Rusiya Türkmənistanla Azərbaycan arasında Xəzərin dibi ilə boru xəttinin çəkilməsinin əleyhinədir. Bu mövzu ilə bağlı danışıqlar son illər intensivləşib. Türkiyə və Avropa İttifaqı Xəzər dənizinin dibi ilə boru xəttinin çəkilməsini istəyirlər. Moskva bundan narahatdır. Xəzərdə və Azərbaycana yaxın ərazidə hərbi dəniz donanmasının gücləndirilməsi həmin boru xəttinin çəkilməsinə də əngəldir. Rusiya Azərbaycana xoş olmayan daha bir addım atıb. Rusiyanın Ermənistana verdiyi İsgəndər raketləri Ermənistan-Azərbaycan sərhədində yerləşdirilib. Həmin raketlərin Dağlıq Qarabağda yerləşdirilməyəcəyinə heç bir zəmanət yoxdur".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Regionda yeni ərəb siyasi ittifaqı formalaşır

## "Serial müharibəsi" və ya Yaxın Şərqin yeni siyasi güc mənzərəsi; Türkiyə və Qətər "istənməyən", İran isə düşmən elan olunur

**Körfəz ərəb ölkələrində Türkiyə seriallarına qadağalara Misir də qoşulub. Misirin dini, ictimai və sosial həyatında böyük təsiri olan və müsəlman aləminin əsas dini mərkəzi hesab olunan "Əl-Əzhər" Universiteti Türkiyə seriallarını "cəmiyyət üçün təhdid" adlandırıb.**




İsgəndəriyyə şəhərində kitab sərgisində çıxış edən "Əl-Əzhər" Universitetinin rektor müavini Yusif Amer deyib ki, türk və hind serialları Misirin istiqrarını təhdid edir. Onun fikrincə, ərəb dili də bundan zərər görür. O, daha çox ərəb kimliyi və mədəniyyətinin zərbə aldığını bildirib.

Qeyd edək ki, bundan əvvəl martın 2-də mərkəzi ofisi BƏƏ-də yerləşən və ərəb dünyasında ən çox baxılan televiziya şəbəkəsi olan MBC şirkətinə daxil olan 11 telekanaldan Türkiyə seriallarının yığışdırılması barədə qərar qəbul olunub. Şirkət etiraf edib ki, Türkiyə və bəzi ərəb dövlətləri arasında yaranan gərginlikdən sonra serialların yığışdırılması ilə bağlı təlimat verilib.

Türk serialları ərəb aləmini 2000-ci illərin əvvəllərindən fəth edib. İlk dəfə 2008-ci ildə "Gümüş" (Ərəbcə dublyajdakı adı "Nur" - K.R.) serialı rekord həddə izləyici toplayıb. MBC kanalında verilən serialın son iki bölümünü 85 milyon insan izləyib. Bundan sonra türk serialları ərəb kanallarının diqqətini cəlb edib. Əksər ərəb telekanalları türk seriallarını dublyaj edərək yayınlayıb. O dövrdə onlar türk serialları yayımlanıb. Son olaraq MBC-nin türk seriallarını yasaqlama qərarı verilən zaman 6 türk serialı yayında olub.

Ərəb kanallarında türk seriallarının verilməsi Türkiyə film sənayesinə böyük pullar qazandırmaqla yanaşı, ticarət, xüsusən də turizm sektoruna böyük təsir edib. Ərəb ölkələrindən İstanbula axışan turistlər filmlərin çəkildiyi bölgələri, məkanları gəzib görmək istəyiblər. Türkiyəyə ərəb turist axınında türk seriallarının əvəzedilməz rolu oldu. Türk seriallarının ikinci mühüm təsiri isə siyasi-ideolojidir. Keyfiyyətli və daha ucuz başa gələn türk serialları ərəb kanallarını zəbt etdikdən sonra həm də türk mədəniyyəti, tarixi, siyasətini təbliğ edir və ərəblər üzərində Türkiyə cazibəsini gücləndirirdi. Bunu son illərdə bu mövzu ilə bağlı aparılan bütün sorğu və araşdırmalar da təsdiqləyir.

Ancaq indi vəziyyət dəyişib. Son bir neçə ildə Türkiyə ilə Səudiyyə Ərəbistanı, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri və Misir kimi ölkələr arasında münasibətlər soyuqlaşıb. Xüsusən də BƏƏ və Misirlə Türkiyə arasında ciddi siyasi gərginliklər mövcuddur. Bu isə istər-istəməz digər sahələrə, o cümlədən, nəhayət, kino sektoruna da sirayət etdi.

Əlbəttə, seriallarla bağlı tənqidlərin hamısını "siyasiləşdirmək" də doğru olmazdı. Ciddi sənət əsəri hesab olunmayan, "çəhrayı" seriallar bütün cəmiyyətlərdə əsasən də mühafizəkar dairələrin tənqidlərinə məruz qalır. Ailə dəyərləri, əxlaq normalarını zədələyən bu cür seriallara münasibət Türkiyənin özündə də birmənalı deyil. Ərəb aləmində də zaman-zaman bu serialları hədəfə alan çıxışlar, çağırışlar olub. Ancaq qərarın indi verilməsi sırf siyasi səbəblərlə bağlıdır, necə ki, artıq MBC şəbəkəsinin nümayəndələri də bunu etiraf ediblər.

Ərəb dünyasının liderliyinə iddialı olan Səudiyyə Ərəbistanı, Misir və BƏƏ indi hər vəchlə "əks təsirləri" zəiflətməyə çalışır. Türkiyənin son illərdə hər sahədə, cümlədən mədəniyyət və kino sahəsində də təsirini artırmasına laqeyd qala bilməzdilər. Yəni qısa desək, seriallar Yaxın Şərqdə siyasi mübarizənin qurbanlarıdır. Bu, təxminən "soyuq müharibə" illərindəki vəziyyəti xatırladır. Türkiyə ərəb dünyasından qopur. Bu həm də Yaxın Şərqdə liderliyə iddia edən dövlətlərin maraqlarına cavab verir. Qətər-Türkiyə ittifaqını sıxışdıran Səudiyyə-BƏƏ-Misir "üçlüyü" Qərbdən də dəstək almaqla regionda güc mərkəzi formalaşdırmağa çalışırlar. Səudiyyə liderlərinin islam terrorçuluğu məfhumunu Qətər və Türkiyənin üzərinə yükləməyə çalışması bu prosesin tərkib hissəsidir. Məsələn, Səudiyyə şahzadəsi bin Salman bildirib ki, «əl-Qaidə» və İŞİD kimi qruplaşmalar "İxvan" hərəkatından yaranıb. "İxvan" isə Qətər və Türkiyə tərəfindən dəstəklənir. Krallığın sərt İslam xəttindən imtina etmək cəhdləri və İsraillə yaxınlaşması yeni ərəb siyasi blokunun kontrlarını göstərir. Bu bir mənada Tramp admnistrasiyasının inşa etməyə çalışdığı yeni Yaxın Şərqdir.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Sərkisyan "vobank" gedir: kritik seçim, qapını döyən "Aprel+" savaşı

## Ermənistanda baş nazir seçkisinə iki gün qalmış Brüsseldə müharibə perspektivi müzakirəyə çıxarıldı - "Qarabağ klanı" üçün bəd proqnozlar...

**Ermənistanda parlamentli üsul-idarəyə keçidi rəsmiləşdirəcək baş nazir seçkisinə cəmi iki gün qaldı. Əksər siyasi ekspertlərə görə, 9 apreldə möcüzə baş verməyəcək və indiki prezident Serj Sərkisyan yeni baş nazir postunu tutacaq. Parlamentdəki hakim çoxluğun mövqeyi və ən əsası, Kremlin verdiyi "dobro" belə söyləməyə əsas verir.**



Beləliklə, Sərkisyan rejiminin timsalında "Qarabağ klanı" hakimiyyətinin ömrünü daha 4 il uzatmış olacaq. Yəni faktiki şəkildə işğalçı ölkədə köhnə hakim komanda təzə qiyafədə xalqa sırınacaq. Demək, ölkənin olan-qalan əhalisinin sosial-iqtisadi durumunda yaxşıya heç nə dəyişməyəcək və Qarabağ məsələsində də ənənəvi siyasi kurs davam edəcəyindən, böyük müharibə riski "Domokl qılıncı" kimi erməni xalqının başı üzərindən asılı qalacaq, kasıb erməni ailələrinə əsgər tabutlarının gəlməsi davam edəcək, ölkədən kütləvi köç səngiməyəcək.

*****

Yeri gəlmişkən, ötən il Sərkisyan parlamentdəki çıxışında mifik iqtisadi sıçrayış planından dəm vuraraq, Ermənistan əhalisinin 2040-cı ilədək 4 milyona çatacağına ümid etdiyini bildirmiş, bununla da iqtisadçı ekspertləri və demoqrafların gülüş hədəfinə çevrilmişdi. Baş nazir seçkiləri ərəfəsi Sərkisyanın həmin vədləri yenidən gündəm olub.

**"Mən Serj Sərkisyanın başqa vədləri kimi bu vədinə də eyni cür yanaşıram". "Yeni Müsavat"ın məlumatına görə, bunu "Yelk" ("Çıxış") parlament fraksiyasının üzvü Ararat Mrzoyan 1 in.am naşrinə açıqlamasında deyib. Onun sözlərinə görə, bunların hamısı yalan, boş sözlərdir:** "Sərkisyanın özü də yaxşı bilir ki, vədlərinin heç biri reallaşmayacaq. Bundan əlavə, mən istisna edirəm ki, onlar (hakimiyyətdəkilər - "YM") bu yöndə nəsə etmək istəsinlər. Hətta istəsələr belə, heç bir iş görə bilməzlər. Serj Sərkisyanın və Respublika Partiyasının başında durduğu Ermənistan heç vaxt 4 milyon əhalisi olan dövlətə çevrilə bilməz. Əksinə, Ermənistan iqtisadiyyatı saatbasaat dağılır, əhalinin sayı azalır".

**Əcnəbi analitiklər də Sərkisyan rejiminin davam eləməsinin erməni xalqına yaxşı heç nə vəd eləmədiyi qənaətindədirlər. Məsələn, tanınmış britaniyalı təhlilçi, "Kornegi" fondunun aparıcı eksperti Tomas de Vaal hesab edir ki, Ermənistanın parlamentli respublikaya keçməsi heç nəyi dəyişməyəcək. Bu barədə onun yazdığı məqalədə deyilir (axar.az).**

"Demək olar ki, heç nə dəyişməyəcək. Serj Sərkisyanın çalışdığı Prezident Administrasiyasının binası prezident ofisi olaraq qalacaq, amma onun qarşısında başqa lövhə asılacaq. Bu mexanizm hakim elitaya hökumətdə qalmağa imkan verəcək. Sərkisyan 2008-ci ildən hakimiyyətdədir və təəssüf ki, Ermənistan bu zaman ərzində özünə yeni lider seçə bilmir. Serj Sərkisyan uzunmüddətli oyun oynayır. Onun dövründə xarici siyasət daha balanslı olub, lakin Rusiya yenə də əsas tərəfdaş olaraq qalır", - deyə o bildirib.

*****

Lakin Sərkisyan dəstəsinin iqtidarda qalması artıq qeyd olunduğu kimi, hər şeydən öncə yeni və böyük müharibə riski deməkdir. Söz düşmüşkən, bu arada Avropa Analitik Mərkəzi "EPS" Brüsseldə Qarabağ məsələsinin həll perspektivləri və müharibə ehtimalı mövzusunda dəyirmi masa təşkil edib.

**"Yen Müsavat" xəbər verir ki, tədbirdə çıxış edən LİNKS Britaniya Analitik Mərkəzinin direktoru Denis Sammut bildirib ki, Azərbaycan və Ermənistan daxilində, eləcə də beynəlxalq miqyasda müvafiq şərait olarsa, danışıqlarda tərəqqi mümkündür. Politoloq deyib:** "Hər iki ölkə üçün gələn həftə mühüm siyasi hadisələrlə zəngin olacaq. Azərbaycanda aprelin 11-də prezident seçkisidir. Bu seçkilər payızda olmalı idi. Ancaq indiki dövlət başçısı İlham Əliyev onu qabağa çəkdi. İcmalçılar hesab edirlər ki, Əliyev təzədən prezident seçiləcək və dördüncü müddətə gedəcək, özü də bu dəfə 5 illiyə yox, 7 illiyə. Ermənistanda isə aprelin 9-da Serj Sərkisyanın ikinci müddətə prezidentliyi yekunlaşır. Ancaq gözlənilir ki, Sərkisyan da hakimiyyət sükanı arxasında qalacaq. Parlamentli idarəçilikdə hakimiyyət baş nazirin əlində olacaq ki, o da yəqin ki, elə Serj Sərkisyan olacaq".

**Analitik güman edir ki, seçkilərdən sonra hər iki ölkə liderinin öhdəsində misli görünməmiş siyasin hakimiyyət və Qarabağ konflikti üzərində işləmək üçün geniş üfüqlər olacaq:** "Əgər təbii ki, bunu istəsələr. İndi məhz o andır ki, nəsə müsbət bir şey baş verməlidir. Növbəti 6-8 ay bu xüsusda çox mühüm müddət olacaq və biz indiyədək olmamış bir hərəkətlilik müşahidə edə bilərik".

**Lakin "Böhran Qrupu"nun təhlilçisi, konfliktoloq Zaur Şiriyev nikbin deyil. Hərçənd o da danışıqlarda tərəqqini istisna eləmir.** "Azərbaycan cəmiyyətində hakimiyyətdən Qarabağ məsələsinin həllini gözləyirlər. Eyni zamanda hər iki ölkədə respublika qurulmasının 100 illiyini bayram eləməyə hazırlaşırlar. Tərəflər və beynəlxalq vasitəçilər bu şansdan yararlanmaq istəyəcəklərmi, yararlana biləcəklərmi - bunu yaxın aylar göstərəcək", - deyə o bildirib.

**Bununla belə, konfliktoloq xəbərdarlıq edir ki, əgər Qarabağda növbəti hərbi eskalasiya başlasa, bu dəfə o daha genişmiqyaslı olacaq:** "2016-cı ildəki döyüşlər həm ərazicə, həm də cəlb edilmiş canlı qüvvə və texnikanın sayı baxımından məhdud idi. Növbəti, "aprel+" eskalasiyası isə iki il öncəkindən daha dağıdıcı olacaq".

Öz növbəsində Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri David Şahnazaryan "4 günlük müharibə"dən keçən iki ili analiz edərkən deyib ki, hazırda münaqişə tərəfləri heç vaxt olmadığı qədər sülh anlaşmasından uzaqdır: "Yeni müharibə ehtimalını da mən çox yüksək hesab edirəm".

*****

Yuxarıda qeyd edilənlər nəzərə alınarsa, belə qənaət hasil olar ki, əslində Serj Sərkisyan aprelin 9-da "vobank" gedir. Onun 10 illik prezidentliyi kriminal "Qarabağ klanı"nın fantastik dərəcədə varlanmasından savayı öz xalqına yaxşı heç nə gətirmədi. Əksinə, ermənilərə sırf yeni məhrumiyyətlər və neqativ nəticələri bu gün də davam edən ağır "aprel sindromu" bəxş elədi.

Üstəgəl, qapını indi daha dağıdıcı olacaq "Aprel+" müharibəsi döyməkdədir. Bu müharibənin nə dərəcədə açılmaz olacağı iki gün sonrakı baş nazir seçkisindən asılı olacaq. Seçim "Qarabağ klanı" naminə "vobank"a hazırlaşan Sərkisyanındır. Nəticəni həm də 10 ildir aldadılan erməni xalqı çıxarmalıdır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**



# "Ermənistanın istənilən hədəflərini sıradan çıxara bilərik"

## Emil Həsənli: "Düşmən ölkə cəhd etsə belə, hansısa bir şəhərimizi, mülkü əhalinin yaşadığı yeri vura bilməz"

**Azərbaycan ordusunun hərbi birləşmə komandiri, 4 günlük aprel döyüşlərinin qəhrəmanlarından olan general-mayor Mayis Bərxudarovun ordu.az saytına verdiyi müsahibədə səsləndirdiyi bəzi fikirlər geniş müzakirələr yaradıb. O bildirib ki, Azərbaycan tərəfi İrəvanın mərkəzini vurmaq iqtidarındadır.**

General-mayorun bu açıqlaması kifayət qədər rezonans doğurub. Eyni zamanda düşmən ölkədə də təşvişə səbəb olub.

Bir məqamı da qeyd edək ki, daha əvvəllər də bu kimi fikirlər səslənəndə belə iddialar ortaya atılırdı ki, biz İrəvanı vursaq, düşmən ölkə də Azərbaycanın şəhərlərini vura bilər. Əslində durum necədir, işğalçı ölkənin buna alternativ cavab vermək gücü varmı, yəni onlar Gəncəni, Mingəçeviri, Bakını vura bilərlərmi?

Ekspertlər deyir ki, Ermənistan ordusunun gücü, hərbi texnikası, silahları Azərbaycanla müqayisə gəlməyəcək dərəcədə zəifdir.

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emil Həsənli Mayis Bərxudarovun əsl həqiqətləri dilə gətirdiyini bildirdi:** "Cənab general doğruları dilə gətirib. Bu gün bizim çox müasir, güclü silahlarımız, raketlərimiz var. Ermənistanın istənilən hədəflərini sıradan çıxara bilərik. Cənab general təbii ki, tək İrəvanı nəzərdə tutmur. Əslində Ermənistanın hansı yerində hərbi obyektləri varsa, onu vurmaq imkanlarımızın yüksək olduğunu deyir. Erməni generalları ayrı-ayrı vaxtlarda müəyyən fikirlər səsləndirirlər. İrəvan Naxçıvanın 40 kilometrliyindədir və orada çox güclü ordumuz var. Azərbaycan xalqı, sadəcə, bu məsələlərə sülhlə yanaşır. Mayis Bərxudarovun rəhbərlik etdiyi birləşmə 2-5 aprel döyüşlərində həm Füzuli, Cəbrayıl, həm də Tərtər, Ağdərə istiqamətində düşmənə çox ağır zərbə vurdu. Ermənistanın bəzi ekspertləri ayrı-ayrı vaxtlarda bildirirlər ki, biz də İsgəndər silahları, bəzi raketlər var, Azərbaycanın istənilən nöqtəsini vura bilərik. Sanki bilmirlər ki, Bakı Ermənistandan 360-500 kilometr aralıdadır. Azərbaycan dünyanın silah istehsal edən ən müasir dövlətlərindən modern silahlar alıb. Hazırda hava, quru və dəniz sərhədlərimiz çox yüksək səviyyədə qorunur. Hətta Ermənistan cəhd etsə belə, hansısa bir şəhərimizi, mülkü əhalinin yaşadığı yeri vura bilməz. Onların belə bir gücü olsaydı, bundan istifadə edərdilər, çünki beynəlxalq hüququ tanımırlar. Hazırda Ermənistana rəhbərlik edənlərin əli Xocalıda mülkü əhalinin qanına batıb. Rəhbər olan həmin şəxslər Füzulidə ikiyaşlı Zəhranı qətlə yetirdilər, mülkü əhaliyə atəş açdılar. Dəfələrlə bu cür hadisələr olub. Amma Azərbaycan ordusu heç vaxt mülkü əhaliyə qarşı silah işlətməyib, Qazaxdan tutmuş Naxçıvana qədər üstün olduğumuz yerlərdə heç vaxt mülkü əhaliyə atəş açmamışıq. Hətta əməliyyatlar gedən vaxtda belə əsirlərlə Azərbaycan əsgərləri humanist davranıblar. Ermənilər nə cür cəhdlər etsələr belə, heç nə edə bilməzlər. Çünki Azərbaycanın müasir hərbi kompleksi, silah arsenalı, müdafiə imkanları var. Ordumuzun saxlanması, silahlandırılması çox yüksək səviyyədədir. Azərbaycanın elə peşəkar hərbçiləri var ki, istənilən müasir silahdan ən yüksək səviyyədə istifadə edə bilirlər. 2016-cı ilin aprel hadisələri bunu sübut etdi. Azərbaycan ordusunda hər şey yüksək səviyyədədir. Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə təhdid olacaq Ermənistanın istənilən ərazisini istənilən an vurmaq gücündəyik. Cənab general fikirlərində bunları nəzərdə tutur ki, oradan Azərbaycan üçün bir təhlükə varsa, istər İrəvan, istərsə də digər yer olsun, həmin təhlükəli nöqtəni vurmaq iqtidarındayıq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 74 (6963) 7 aprel 2018



# Ruslara qoşulan neytral

Zamin HACI
zaminhaci@mail.ru

“Mən bir bəyəm ki, bütün tanışlarım adımı əzbər bilir. Əşi, xanla aş yemirəm ki, bığım yağa batar, bir gədənin birisi mənə göyə olmaq istəyir....”

*(Üzeyir Hacıbəyov, “Arşın mal alan”)*

**Dünyada çoxlu avara beynəlxalq qurumlar vardır, bunlardan BMT, AŞ PA, GUAM, MDB və sairəni qeyd edə bilərik. Örnək üçün, MDB-ni mən niyə avara qurum adlandırdım? Çünki bunun üzvləri bir-biri ilə düşməndir. Ermənistan Azərbaycanın torpaqlarını işğal edib, Rusiya Ukraynanı parçalamaqla məşğuldur (doğrudur, son illər Ukrayna MDB-dən tam üzülüşmək - assosiativ üzv idilər - yolunu tutmuşdu, maraqlanmadım axırı necə oldu - Z.H.) Moldovanın böyründə bir təxribatçı qurumu da ruslar dəstəkləyir.**

Belarus hərdən Rusiyanı qucaqlayır, hərdən dirsək göstərir. Orta Asiya respublikaları isə bir-biri ilə yumşaq yazsaq, mehriban düşməndirlər. Bir də görürsən Nazarbayevin beyni çöndü, Qırğızıstanla sərhədi qapadı. Özbəklər tacikləri, türkmənlər qazaxları görəndə elə bil qutuda ilan görürlər. Müxtəsəri, MDB düşmənlərin birliyi kimi dünya tarixinin ən zırıltı absurdlarından sayılmalıdır. O cümlədən, GUAM ölü doğulmuş birlikdir. Ukraynanın başına min fəlakət gəldi, bəlkə bizdən bir rəsmi dəstək aldılar? Əksinə, çox vaxt rusların qərarlarına səs verdik. BMT və AŞ PA haqda fikirlərimi isə heç yazmıram, yoxsa dastan açılar. Molla Nəsrəddin demişkən, bilənlər bilməyənlərə danışsın, bizim söhbətimiz ayrıdır.

Mənim aləmimdə belənçik mənasız təşkilatlardan biri də Qoşulmayanlar Hərəkatıdır, loru dildə desək, neytral dövlətlərin haçansa qayırdığı bir idarədir. Bunlar guya planetdə gedən əlləm-qəlləm proseslərə qarışmırlar. NATO ilə SSRİ, ABŞ-la Rusiya, nə bilim, Yəcuc qəbilələri ilə Məcuc qəbilələri bir-birini qıracaqlar, bundan bizə nə - təşkilatın qısa məramnaməsini bu cür yoza bilərik. Doğrudan da bizim ulu babalarımız hegemon dövlətlərin münasibətlərini çox qəşəng bir ata sözümüzdə əks etdirmişlər: “İki dəvə əlləşəndə, otluq xarab olar”. Gərək çalışasan, belə otluqlardan uzaq olasan. Ən ideal halda isə belə süpürləşmələr sənin çəmənliyinə düşməsin.

Ancaq əlbəttə, bu qoşulmayanlar hərəkatı sözdə özlərini belə adlandırırlar, adətən hərəsi hardasa bir zırpı dövlətin su qabını daşımaqdan zövq alır. Çoxu isə mən biləni keçmiş sosialist düşərgəsinin üzvləri və geridə qalmış, ac-yalavac Afrika dövlətləridir. O boyda Avropadan bunun cəmi 1 üzvü var, o da Belarusdur.

Ya vəlvələdən, ya zəlzələdən Azərbaycan da haçansa bu hərəkatın sırasına qoşulubdur *(qoşulmayanlara qoşulmaq - tipik bizə aid hərəkətdir).* Hətta bu günlərdə bu hərəkatın nəsə bir sammiti Bakı şəhərində keçirildi, zəhmətkeşlərimiz çox sevindilər, çünki Qoşulmayanlar Hərəkatı Kəlbəcəri azad edib bizə verəcəkdir - ta ümid ora qalıbdır.

Bəs mən niyə hörmətli oxucularımı işindən-gücündən ayırıb bu temaya qoşdum, nəhayət, onu yazım. Elə Qoşulmayanlar Hərəkatının Bakıda iclası keçən günlərdə, lap dəqiq yazsam 4 apreldə Haaqada başqa bir iclas oldu. Orada Kimyəvi Silahın Qadağan olunması Təşkilatı (KSQT) Rusiyanın qaldırdığı məsələyə baxırdı. Bu, Britaniyada keçmiş rus agenti Skripal və qızının kimyəvi silahla zəhərlənməsi əhvalatı idi. Britaniya və onun müttəfiqləri bu cinayətdə Rusiyanı suçlayır. Britaniya lap əvvəldən bu işi KSQT ekspertlərinə açıb, onlar da araşdırma aparır. İndi isə Rusiya tələb edirdi araşdırmaya özü də ayrıca qoşulsun və təbii ki, KSQT bu tələbi rədd etdi *(elə bil sən müttəhimlər kürsüsündə otura-otura həm də hakim olmaq istəyirsən - Rusiyanın tələbi çox absurd, əsl russayağı idi).* İclasdan sonra Röyter agentliyi Rusiyanın təklifinə dəstək verən ölkələrin adını açıqladı, bunlar cəmi 6 dövlət olub: Çin, Əlcəzair, İran, Sudan, Rusiyanın özü və bir də... Azərbaycan. 15 dövlət Rusiyanın əleyhinə səs verib. Qalan ölkələr isə ya bitərəf qalıblar, ya da ümumiyyətlə iclasa qatılmayıblar, el dilində desək, aradan cırıblar.

Bax, indi məni düşündürən bizim xarici siyasətin bu yaltaqlığı və mənasız ruspərəstliyidir. Ermənistan ərazini işğal edib, onu Rusiyanın forpostu adlandırırsan, ancaq beynəlxalq tədbirlərdə Rusiyanın döşəyi rolunu kim oynayır? ATƏT-in Minsk Qrupunu söyürlər, ancaq onun həmsədrlərindən biri elə Rusiya deyilmi? Bu nə siyasətdir? Maraqlıdır ki, elə həmin Ermənistan heç bu iclasda Rusiyaya dəstək verməyibdir. Bəs bizə nə düşübdür? “Qoşulmamaq hərəkatı” budur? Mən KSQT-nin o iclasını nəsə fövqəladə bir zad saymıram və ola bilsin elə 5 apreldə - sabahısı gün hamı səs verənlərin mövqeyini unutmuşdur. Sadəcə, bu ilk dəfə deyil ki, bizim diplomatiya ruslara yaltaqlanır. Əvəzində hakimiyyətləri üçün Putin rejimindən siyasi dəstək alırlar, bunu anlayıram. Azərbaycan üçünsə bunun bir qram xeyri yoxdur.



# Türk ruhunun böyük və inadkar daşıyıcısı - Rəcəb Tayyib Ərdoğan

## Türkiyə Cümhuriyyətinin artan gücü və onun liderinin şəxsiyyəti dünyanı yönəldən gücləri çox rahatsız edir

**Son illərdə dünya mətbuatının səhifələrində yer alan dövlət başçıları arasında Rusiya prezidenti Vladımır Putin və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan xüsusi yer tutur. Hətta Çin və ABŞ kimi super güclərin başçılarına da onlar qədər yer ayrılmır. Qərb dünyasının özü üçün ən böyük təhlükə mənbəyi hesab etdiyi Rusiya prezidentinə ayrılan diqqət təbiidir, amma Mustafa Kamal Atatürk dönəmindən bəri dünya mediası Türkiyə liderinə bu qədər diqqət ayırmayıb. Onlar Rəcəb Tayyib Ərdoğanı daha çox qara rənglərdə təsvir etsələr də, onu “sultan”, “diktator” adlandırsalar da, Osmanlı imperiyasını dirçəltmək istəyində bulunmaqda suçlasalar da, bir şeyi qətiyyətlə demək olar: Türkiyə Cümhuriyyətinin artan gücü və onun liderinin şəxsiyyəti dünyanı yönəldən gücləri çox rahatsız edir.**

Uinston Çörçill ingilislər üçün, Şarl de Qoll fransızlar üçün, Avraham Linkoln amerikalılar üçün kimdirsə, R.T Ərdoğan da türklər üçün elədir, hələ bəlkə bir az da artıqdır...

Batının Ərdoğan kimi liderdən yana əndişəsi 2016-cı il iyulun 15-də Türkiyədə hərbi çevriliş cəhdi baş verəndə xüsusilə qabarıq göründü. Qiyamçılar öz cəhdlərinə başlar-başlamaz, bu çevriliş tamaşasının rejissorlarının xidmətində olan media quruluşları prezident R.T.Ərdoğanın naməlum istiqamətdə getdiyini və ya artıq taleyinin həll olunduğunu böyük məmnunluqla bildirirdilər. Yəqin ki, bu qiyamı ssenariləşdirənlər Türkiyədə dəfələrlə olduğu kimi, onların xidmətində olan hərbiçilərin hakimiyyəti rahatca ələ keçirəcəyini düşünürdülər. Qərb mediasının münasibətindən açıq-aydın hiss olunurdu ki, Türkiyənin NATO üzrə müttəfiqləri hərbiçilərin bu aksiyasından heç də xəbərsiz deyillər. “Mister ikslər” edam cəzası olmayan bir məmləkətin başçısının ölüm fərmanına imza atmışdılar. Hətta çevriliş cəhdinin ilk saatlarında, adətən sarayın istəklərini dilə gətirən məşhur rus siyasətçisi, dəlibaş Vladimir Jirinovski artıq işin bitdiyini, Rəcəb Tayyib Ərdoğanın və keçmiş baş nazir Əhməd Davudoğlunuun edam olunacağını söyləyirdi. V.Jirinovskinin dediklərinə rəğmən, ilk olaraq Rusiya prezidenti Vladimir Putin Türkiyə iqtidarına öz dəstəyini bildirdi.

Azərbaycan prezidenti İlham Əliyev isə Türkiyə iqtidarına dəstəyini nəinki şifahi çıxışlarında və Ərdoğanla telefon danışıqlarında ifadə etdi, həm də qardaş ölkəyə gedərək, R.T.Ərdoğana şəxsi dəstəyini nümayiş etdirdi. Və bununla da “bir millət, iki dövlət”in ayrılmaz olduğunu Türkiyənin düşmənlərinə göstərdi. Türkiyə Cümhuriyyətini gözü götürməyənlərin istədiyi isə alınmadı, fələk adlı mələk onların saydığını saymadı. Bu ssenarini yazanlar, sadəcə, bir şeyi nəzərə almamışdılar - Türkiyə artıq əvvəlki Türkiyə deyil. Böyük Fatehlərin torunları olan bu xalq, bu ordu daha səlibçilərin vassalı olmaq istəmir. Xalqın seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğan öz xalqına, tarixin ən böyük qəhrəmanlarının genini daşıyan türk xalqına müraciət edərək, zalımlara boyun əyməməyə, küçələrə çıxıb sui-qəsdçilərə dirəniş göstərməyə çağırdı. Minarələrdən ucalan azan sədaları altında “Allahu-Əkbər” deyərək küçələrə axışan milyonlarla insan yalın əllə tankların, topların, silahlı əsgərlərin üzərinə axın etdi və çağdaş Türkiyə tarixinə yeni bir qəhrəmanlıq dastanı yazdı.










Ordudakı milli qüvvələr də prezidentə sadiq qalaraq Türkiyə dövlətinin yanında yer aldılar. Həmin gün “İslamın son ordusu” adlandırılan türk xalqı səlibçilərin muzdlularını diz çökdürdü: yüz il öncə Sakaryada onların ağalarının babalarını çökdürdüyü kimi. O gecə məlum oldu ki, artıq Türkiyə əvvəlki kimi ABŞ və Avropa Birliyinin sınaq meydanı olmaq istəmir, artıq bu ölkədə şərəfli babalarının əsrlər boyu yaşatdığı əzəməti damarlarında daşıyan yeni bir nəsil ortaya çıxıb və onlar XXI əsrin başlarında yeni Çanaqqala Zəfəri inşa etmək üçün israrlıdırlar. Onlar illər uzunu belə bir zəfərin memarını gözləmişlər və Cənabi Allah bu xalqı qələbədən-qələbəyə aparmaq üçün ona bəsirətli bir lider bəxş etmişdir. Əgər yüz il öncə, Osmanlı əzəmətinin çökdüyü bir zamanda belə bir xilaskar Qazi Mustafa Kamal Atatürk oldusa, həmin əzəmətin baş qaldırdığı yeni zamanda xilaskar funksiyanı, ən yüksək kürsülərdən “Dünya beşdən böyükdür” deyərək II Dünya müharibəsinin qalibləri olan beş hegemon gücə meydan oxuyan Yeni Türkiyənin lideri Rəcəb Tayyib Ərdoğan öz üzərinə götürdü. Buna heç iqtisadi cəhətdən çox gəlişmiş Almaniya və Yaponiya kimi dövlətlər də cəsarət etməmişdilər. Bəs onda on illər boyu Avropanın öz kandarında görmək istədiyi Türkiyənin başçısının bu cəsarəti haradan qaynaqlanır? Bunu görmək üçün onun həyat yoluna nəzər salmaq yəqin ki, faydalı olar.

Ötən əsrin 90-cı illərinin əvvəllərində İstanbul Avropanın ən çirkli və zibilli şəhərlərindən biri kimi tanınırdı. Bu nəhəng meqapolisin küçələrini sözün əsl mənasında zibil basmışdı. Şəhər bələdiyyəsi əhalinin “çöp təpələri” adlandırdığı zibilliklərin öhdəsindən heç cürə gələ bilmirdi. Yeddi təpəli şəhər minlərlə çöp təpəsinə çevrilmişdi. Şəhərin su təchizatı da bərbad gündə idi. İnsanlar saatlarla su növbəsinə dayanırdılar. Bəzən belə növbələr kilometrlərlə uzanıb gedirdi. İstanbulun qaz təchizatı zəif olduğundan hər yerdə kömür yandırırdılar, ona görə də xüsusən qış aylarında küçələrdə nəfəs almaq belə çətin idi. Bu vəziyyət 1994-cü ildən sonra, gənc siyasətçi Rəcəb Tayyib Ərdoğanın İstanbulun bələdiyyə başqanı seçilməsi ilə sürətlə dəyişməyə başladı. Yeni bələdiyyə başqanının gördüyü tədbirlər nəticəsində zibil təpələrinin küçələrdən yığışdırılıb emal edilməsi və su təchizatı qaydaya düşdü. Gecəqonduların yerində yeni çağdaş binalar, parklar tikilməyə başladı. Qaz təchizatı qaydaya qoyulduğundan, tüstü buludları şəhərin üzərindən çəkildi. 600 il böyük bir imperiyanın mərkəzi olmuş İstanbul yavaş -yavaş layiq olduğu şəkli almağa başladı. Qısa bir sürədə böyük dəyişikliklər həyada keçirən R.T.Ərdoğan öz əməlləri ilə istanbulluların könlünü fəth etdi. Bəlkə də bu hadisə Sultan Fateh Məhməd Xanın fəthindən sonra İstanbulun ikinci fəthi oldu. Bu fəthin ərazisi isə milyonlarla insanın könlü və sevgisiydi və bu könüllər Rifah Partiyasında fəaliyyət göstərən gənc siyasətçi Rəcəb Tayyib Ərdoğanın siyasət Olimpinə doğru getdiyi yolda dirənə biləcəyi istinad nöqtəsinə çevrildi. Əlbəttə, bu yol heç də başladığı kimi hamar olmadı. 1995-ci ildə rəhmətlik Nəcməddin Ərbakanın başçılıq etdiyi Rifah Partiyası Türkiyədə parlament seçkilərində qalib gəldi və hökumət qurmaq hüququ qazandı. Bu qələbədə İstanbulun xalq tərəfindən sevilən bələdiyyə başqanı da az rol oynamadı. Koalision hökumətə başçılıq edən Nəcməddin Ərbakan “Avropada sonuncu dövlət olmaqdansa, İslam dünyasında birinci dövlət olalım” deyərək hegemon güclərin qoyduğu qaydaları pozdu və 28 fevral 1997-ci ildə ordu mənsubları, Türkiyəni sevməyənlərin arzusunu yerinə yetirdilər *(onları dərin dövlət adlandırmaq elə də uğurlu fikir deyil, çünki hadisələr göstərdi ki, Türkiyə dövlətinin daha dərin dayaqları var),* onu hakimiyyətdən düşürdülər və az bir zamandan sonra partiyanı qapatdılar.

Lozanna müqaviləsini Türkiyəyə qəbul etdirənlər ona 780 min kvadrat kilometr ərazi ayırmış və keçmiş Osmanlı torpaqları tərəfə baxmamaq şərtini qoymuşdular. R.T.Ərdoğan da İstanbulun bələdiyyə başqanlığından getməli oldu, ona məhkəmə hökmü ilə 10 aylıq həbs cəzası da verildi. Fəqət bu gediş çox əzəmətli alındı. Balkon çıxışı yapan bələdiyyə başqanının görüşünə on minlərlə insan gəldi. Bu, könüllər fatehinin triumfu idi. Bəlkə də o, öz qarşısına mövcud siyasi sistemi dəyişmək və Türkiyəyə itirilmiş əzəmətini qaytarmaq hədəfini məhz həmin zamanda qoydu. Sonrakı hadisələr göstərdi ki, R.T.Ərdoğan qarşısına qoyduğu hədəflərə çatmağı çox yaxşı bacarır. Bir siyasətçi kimi, yaxın və uzaq hədəflər müəyyənləşdirib ona doğru getmək bacarığı onun ən böyük üstünlüklərindən biridir.

Bu gün xarizmatik fiqurların az olduğu dünya siyasi liderləri arasında belələrini barmaqla saymaq olar. Onun bu istedadı baş nazir və prezident olduğu dönəmlərdə özünü qabarıq şəkildə göstərməyə başladı. Fəqət bütün bunlar sonralar olacaq, hələlik isə o, generallar tərəfindən qapadılmış Rifah Partiyasında fəaliyyət göstərirdi, çıxışlar edirdi, çıxışlarında şeirlərdən sitatlar gətirirdi. Çıxışlarından birində, daha dəqiqi, 1997-ci ildə Siirtdə etdiyi bir çıxışda “türkçülüyün atası” Ziya Göy Alpdan gətirdiyi sitata görə onu həbsxanaya salmışdılar. “Minarələr süngü, qübbələr miğfər, camilər qışlamız, möminlər əsgər”. Onu mühakimə edənlərin məntiqi qəribə idi: həm özlərini Atatürk yolunun qoruyucuları elan edirdilər, həm də Atatürkün özünə mənəvi ata saydığı Z.Göy Alpın şeirlərindən sitat gətirməyə görə insanı zindana atırdılar. Şübhəsiz ki, məsələ tək şeirdə deyildi, onları qorxudan daha çox Ərdoğanın xarizması və xalq arasındakı populyarlığı, belə bir şəxsiyyətin İslam təmayüllü siyasətçilərin sırasında olması idi. Bir çox üstün keyfiyyətlərə malik bu insanın populyarlığının bir səbəbi də siyasi nitqə poetik əhval-ruhiyyə gətirməsi, verdiyi vədləri doğru-dürüst yerinə yetirməsi idi. Bu populyarlıq 2001-ci ildə onun tərəfindən Ədalət və Qalxınma Partiyasının (AK Parti) yaradılması və 2002-ci ildə həmin partiyanın parlament seçkilərini təkbaşına udması ilə nəticələndi. Bu, Türkiyə cəmiyyətində fenomenal hadisə idi və İstanbulda könülləri fəth edən Ərdoğan məmləkət miqyasında da könüllər fatehinə çevrildi. Fəqət qalib partiyanın rəhbərinin parlamentə düşməsinə əngəl törədildi. Ölkənin baş naziri partiyanın qurucularından olan Abdulla Gül seçildi, amma Ərdoğanın əngəli aşıb hədəfə çatmaq bacarığı burada da özünü göstərdi. O, qanunsuz yasağı aşıb millət vəkili, daha sonra baş nazir oldu və Türkiyədə parlament sistemi ilə ordu sistemi arasında açıq rəqabət başladı. Daha doğrusu, bu sistem 1946-cı ildə ABŞ tərəfindən Türkiyəni asan idarə etmək üçün qəbul etdirilmiş bir sistem idi. Bu zamana qədər belə rəqabətdə həmişə ordu qalib çıxmışdı. Orduya və Qərbə “buynuz göstərən” siyasətçilər qanlı və qansız hərbi çevrilişlər yolu ilə iqtidardan alınmış, həbs olunmuş və ya edam edilmişdi.

ABŞ-ın ssenarisini cızdığı 1960-cı il çevrilişində Atatürk hökumətində baş nazir olmuş prezident Cəlal Bayar həbs edilmiş, baş nazir Adnan Menderes edam olunmuşdu. Onların əsas günahı Qərbin vassalına çevrilmiş Türkiyəni dirçəltmək cəhdləri idi. Bundan sonra Türkiyə sənayesi, o cümlədən hərbi sənaye tam olaraq Qərbdən asılı vəziyyətə salındı. 1964-cü ildə Kiprdə türklərə qarşı soyqırım törədiləndə Qərbdən asılı vəziyyətə düşmüş Türkiyəni embarqo ilə hədələdilər, ABŞ prezidenti baş nazir İsmət İnönüyə təhdid dolu məktub yazdı və 10 il sərasər Atatürk Türkiyəsi Kiprdə türklərin soyqırımını seyr etməyə məcbur oldu. Yalnız 1974-cü ildə Türkiyə Kiprə qoşun çıxararaq oradakı türkləri məhv olma təhlükəsindən xilas etdi. Türkiyənin “böyük qardaşı” və strateji müttəfiqi ABŞ ona qarşı silah embarqosu tətbiq etdi. 1970 və 1980-ci illərdə də yeni çevrilişlər gercəkləşdi, yəni hər 10 ilə bir çevriliş. Prezident kürsüsünü öz əllərində saxlayan hərbiçilər çevrilişlərarası dövrlərdə hakimiyyətə ciddi hədəfləri olmayan, dünya şəhərlərinin incisi olan yeddi təpəli İstanbulu zibil təpələrinə çevirən oyuncaq partiyalar gətirdilər, türk millətinin cəng ehtirası seçki oyunlarında xərcləndi.

Kürd kartını ortaya atanlar Türkiyənin parçalanacağına ümid edirdilər. Amma unudurdular ki, Atatürklər, Osman Qazilər yetirən xalqın parlaq liderlər doğurmağa gücü və tükənməz ruhu var. Çünki 17 imperatorluq qurmuş bir xalq ona edilən həqarətlərlə barışa bilməzdi. “Daş bitik”lərdə deyildiyi kimi, “xalqın arzularından xilaskar doğuldu”...

R.T.Ərdoğan baş nazir olduğu dövrlərdə göstərdi ki, nə qədər romantik qəlbə sahib olsa da, dövlət məsələlərində o qədər praqmatik və güzəştsizdir. Arxasında xalqın gücünü hiss edən bu rəhbər öncə ordu rəhbərlərini dövlətə tabe etməyi bacardı. İkinci mərhələdə dövlət qarşısında hədəf qoydu -2023! Yəni Türkiyə Cümhuriyyətinin 100 illiyində bu məmləkət iqtisadi cəhətdən dünyanın ən gəlişmiş 10 dövlətindən biri olmalıdır.

R.T.Ərdoğanın rəhbərlik etdiyi AK Partiyanın 16 illik hakimiyyəti dövründə Türkiyə çox dəyişdi. İqtisadi qalxınmaya xüsusi önəm verən AK Partiya hakimiyyətinin apardığı islahatlar nəticəsində iqtisadiyyatda böyük uğurlara nail olundu. Ölkə Beynəlxalq Valyuta Fondunun 26 milyard dollar borcunu ödədi, valyuta ehtiyatları 27 mlrd. dollardan 120 mlrd. dollara qədər yüksəldi. İxracat 170 mlrd. dollar həddinə gəldi. Artıq 2011-ci ildə Türkiyə iqtisadi artıma görə bütün “böyük iyirmilik” ölkələrini qabaqladı və 2018-ci ildə bu uğur təkrarlandı. Ölkədə böyük layihələr gerçəkləşdi, dəmir və quru yolları çəkildi, onlarla tunellər, hava limanları inşa olundu. Avropa ilə Asiyanı birləşdirən iki körpü salındı, dənizin altından avtomobil və dəmir yolları çəkildi. Türkiyənin 60 illik həsrətinə son qoyuldu, ölkədə ilk Atom Elektrik Stansiyası inşa edilməyə başladı. Rusiya və Azərbaycan ilə birgə gercəkləşdirilən böyük enerji layihələri *(Bakı-Tiflis-Ceyhan, TANAP, “Türk axını” və s.)* Türkiyəni Avropanın enerji mənbəyinə çevirdi. Bütün bunlar hamısı böyük gəlişimin alt yapısıdır.

İqtisadi gəlişmələrlə bərabər, ölkənin təhlükəsizlik məsələsində də böyük uğurlar əldə olundu. İllərlə NATO-lu “qardaşlarının” əlinə baxan Türkiyə öz hərbi sənayesini yaratdı, tanklar, təyyarələr, helikopterlər, insansız hava uçaqları və s. istehsal etməyə başladı. Artıq Türkiyəni silah embarqosu ilə hədələmək zamanı keçdi.

Bütün bu uğurlar iqtisadi böhran yaşayan Qərbi qıcıqlandırmaya bilməzdi. Çünki iqtisadi güc xalqın firavanlığı, birliyi deməkdir. Bir zamanlar Avropaya gedən “almançılara” həsəd aparanların indi onlara yazığı gəlir. Çünki bəzən vətənlərinə dönməyə belə para tapmırlar.







Ölkə prezident üsul-idarəsinə keçdikdən sonra prezident seçilən Rəcəb Tayyib Ərdoğan dövlət və ordu strukturlarına soxulmuş paralel dövlət - FETÖ tərəfindən şərlənərək həbsə atılmış vətənpərvər ordu mənsubları həbsdən azad edildilər və dövlət başçısının ətrafında birləşdilər. FETÖ çevriliş cəhdi zamanı həmin vətənpərvər qüvvələr imperialist nökərlərinin darmadağın olunmasında mühüm rol oynadılar. Həmin hadisələr zamanı Millətçi Hərəkat Partiyasının göstərdiyi prinsipial mövqe sonda AK Partiya ilə birlikdə Cumhur İttifaqının yaradılmasına gətirib çıxardı. Bütün bunlar ölkədə daxili sabitliyin yaranmasına səbəb oldu və 40 ildən artıq bir zamanda Türkiyə Cümhuriyyətinə böyük baş ağrısı olan terrora qarşı həm ölkə daxilində, həm də xaricdə amansız mücadilə başladıldı. Xalqının və dövlətinin gücünü, dəstəyini hiss edən R.T.Ərdoğan, dünyanın harasında olur-olsun, sonuncu terrorist qalana qədər mübarizəni davam etdirmək təlimatı verdi.

Biz artıq onun qoyduğu hədəflərə çatmaq bacarığını görmüşük və terror ilanının başının tezliklə əziləcəyi şübhəsizdir. “Firat Qalxanı” və “Zeytun budağı” əməliyyatları göstərdi ki, Türkiyə artıq hamının hesablaşmaq zorunda olduğu gücdür, artıq ona yuxarıdan baxmaq zamanı keçdi. Rəcəb Tayyib Ərdoğan Türkiyə cəmiyyətinə yenidən ulu babalarımızın, Qaraxanlıların, Səlcuqların, Osmanlıların əzəmətini dadızdırdı, illərlə əzilən İslam ümmətinə sahib durdu və tək Türkiyənin yox, bütün Türk-İslam dünyasının liderinə çevrildi. Onun Rusiya, Çin, İran kimi dövlətlərlə qurduğu ağıllı ilişkilər Avrasiya məkanında yeni güc mərkəzi oluşdurmaqdadır.

**Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi Türkiyə başqalarının iradəsini həyata keçirən dövlətdən, başqalarına öz iradəsini qəbul etdirən bir dövlətə çevrilməkdədir. Bu dövlətin lideri var, bu dövlətin hədəfi var, bu dövlətin kitabı var.**

**Haydı, Türkiyəm!!!**

❑ Elxan Zal QARAXANLI,
Elçin HÜSEYNBƏYLİ

YENİ MÜSAVAT
N 74 (6963) 7 aprel 2018

# Bakı Beynəlxalq Avtovağzal Kompleksi yenidən qurulur

## Yaşar İsakov: "İşlər yayın sonunda başa çatacaq, xidmət səviyyəsi daha da yüksələcək"

**Bakı Beynəlxalq Avtovağzal Kompleksi ilə bağlı mətbuatda ara-sıra müxtəlif çatışmazlıqlarla bağlı yazılar yayımlanır. İnsanlar daha çox avtovağzal kompleksində olan avadanlıqların müasir standartlara cavab verməməsindən, təmir-tikinti işlərinə ehtiyacın olmasından şikayətlənirlər.**









Məsələ ilə bağlı daha detallı bilgi almaq üçün "Yeni Müsavat"ın əməkdaşı olaraq avtovağzala yollandıq. Müşahidə etdik ki, avtovağzal ərazisində geniş təmir işləri aparılır. Öyrəndik ki, görülən işlərdə məqsəd Bakı Beynəlxalq Avtovağzal Kompleksini müasir standartlara uyğunlaşdırmaqdır. Ərazidə texnikalar işləyir, avadanlıqlar quraşdırılır.

**Görülən işlərlə bağlı daha detallı məlumat almaq üçün kompleksin mətbuat xidmətinin rəhbəri Yaşar İsakovla görüşdük. Y. İsakov bildirdi ki, avtovağzalda aparılan işlər nəticəsində sərnişinlərin rahatlığı tam təmin olunacaq:**

"Gördüyünüz kimi, hazırda avtovağzalda quruculuq və təmir-bərpa işləri aparılır. Perron ərazisində izolyasiya qatının qismən bərpası, kompleksin binasının işıqlandırılmasının təkmilləşdirilməsi və dam örtüyünün yenilənməsi istiqamətində də işlər görülür. Bundan əlavə, kompleksin zirzəmisi bərpa olunub, ərazidəki qrunt sularının təmizlənməsi prosesi tam başa çatdırılıb. Bu məqsədlə əlavə altı nasos quraşdırılıb.

Məlum olduğu kimi, sərnişinlərə xidmətin yüksək səviyyədə və keyfiyyətlə aparılması üçün Bakı Beynəlxalq Avtovağzal Kompleksində müxtəlif təyinatlı infrastrukturlar - hotel, ticarət, ictimai iaşə müəssisələri, müxtəlif xidmət sahələri və s. fəaliyyət göstərir. Hər gün yüzlərlə yerli və xarici vətəndaş Bakı Beynəlxalq Avtovağzal Kompleksinin xidmətlərindən istifadə edir".

**Y.İsakov bildirib ki, insanların təhlükəsizliyini təmin etmək üçün Bakı Beynəlxalq Avtovağzal Kompleksində bir sıra işlər görülüb:** "Quraşdırılmış nəzarət kameraları və yanğından mühafizə sistemi daha da təkmilləşdirilib. Bu istiqamətdə təmir və bərpa işləri yaxın gələcəkdə də davam etdiriləcək. Tibb məntəqəsi daha təkmil qaydada fəaliyyət göstərir. Məntəqədə çalışan təcrübəli tibb bacıları səhhəti ilə bağlı narahatlıq keçirən sərnişinlərə ilkin tibbi yardım göstərirlər. Şəhərdaxili, şəhərlərarası dayanacaqların və Sumqayıt avtostansiyasının olduğu ərazidə yeni nəqliyyat-mübadilə mərkəzi tikilir. Həmin ərazidə təmir-bərpa işləri aparıldığı üçün dayanacaqlar müvəqqəti olaraq başqa yerə köçürülüb. Sərnişinlərin, piyadaların çətinlik çəkməməsi üçün avtovağzalın sərnişindaşınma ilə məşğul olan əməkdaşları yeraltı keçidin, piyada keçidinin, metronun çıxışının yerini vətəndaşlara göstərirlər".

Qeyd edək ki, metronun bir çıxışı avtovağzala açılır.

**İsakov bildirib ki, işlər bununla da yekunlaşmayacaq. Onların gələcəklə də bağlı xeyli planları var:** "Gələcək planlara gəlincə, avtovağzalın giriş və çıxış zonalarının yenidən təkmilləşdirilməsi, o cümlədən Bakı Beynəlxalq Avtovağzal Kompleksindəki hotelin fəaliyyətinin bərpası, şəhərdaxili nəqliyyat üçün nəzərdə tutulmuş dayanacağın yenidən qurulması və təmiri nəzərdə tutulub.

Bakı Beynəlxalq Avtovağzal Kompleksi ərazisində quruculuq və təmir-bərpa işləri yay aylarının sonunda başa çatacaq. Əminik ki, həyata keçirilən işlər sayəsində bu sahədə xidmət səviyyəsi daha da yüksələcək və Bakı Beynəlxalq Avtovağzal Kompleksinin fəaliyyət dairəsi bir qədər də genişlənəcək".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# İşə götürənlər niyə bilik, bacarıq yox, gənc və gözəl kadr axtarır...

## Sahib Məmmədov: "Şəxsə hansısa əlamətinə, o cümlədən də yaşına görə fərq qoymaq ayrı-seçkilikdir"

**"Yaşı 20-30 arası, xarici görünüşü gözəl olan xanım işçi tələb olunur". Heç şübhəsiz ki, bu tipli elanlarla hər biriniz qarşılaşmısınız. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda elə peşələr və iş yerləri var ki, orada yaş, boy və vizual görünüş önəm daşıyır. Bu cür iş yerlərinin və peşələrin də adları konkret olaraq dövlət tərəfindən müəyyən edilir və tam qanuniləşdirilir.**



Sahib Məmmədov

Xüsusi rütbə və ixtisas tələb edən, hərbi təyinatlı işlərdən başqa "30 yaşdan yuxarı şəxslər işə götürülə bilməz" kimi bir qayda-qanun isə rəsmiyyətdə yoxdur. Amma qeyri-rəsmi şəkildə, xüsusilə özəl sektorda bu "ənənə" hökm sürür. Məhz buna görə də yaşı 30-dan yuxarı olan bir çox insanlar savadı, peşə təcrübəsi olsa belə işsizdir. Ekspertlər isə hesab edir ki, işə müraciət edən şəxsin önünə yaşı və vizual görünüşü əngəl kimi qoyulursa, bu, onun hüquqlarının pozulması və ayrı-seçkilik deməkdir.

Eyni zamanda qanunsuz olaraq vətəndaşlardan rus dili biliyi də tələb olunur.

**Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov bildirdi ki, bu kimi hallar qanunla müəyyən olunmalı və tənzimlənməlidir:** "Biz bu barədə hökumətə dəfələrlə təkliflər vermişik ki, yaşa, cinsə və fizioloji quruluşa görə tələblər olan iş yerlərinin siyahısını tərtib etsinlər. Məsələn, elə yer var ki, orada yaş tələbi, yuxarı və aşağı yaş həddi ola bilər. Yaşa, cinsə, hətta fizioloji quruluşa görə də tələblər ola bilər. Xarici ölkələrdə bu məsələlər qanunvericiliklə tənzimlənir. Bizdə də sovet dövründə təyyarə bələdçisi vəzifəsinə kök adam götürmürdülər. Bu vəzifədə çalışan şəxslərin gənc, uca boy və vizual görünüşü yaxşı olması vacib idi. Yaxud da hotellərin qeydiyyat şöbələrinə işçi seçəndə bu nüanslara diqqət edirdilər. Bu kimi yerlərə bu tələblər ola bilər. Əgər bu kimi tələblər varsa, qanunla müəyyən olunmalı və tənzimlənməlidir. Qalan bütün hallarda bu qadağan olunmalıdır. Çünki bu, konstitusiyanın 25-ci maddəsinə və Əmək Məcəlləsinin 16-cı maddəsinə ziddir. Şəxsə hansısa əlamətinə, o cümlədən də yaşına görə fərq qoymaq ayrı-seçkilikdir. Bir daha qeyd edim ki, bu, xüsusi normativlərlə tənzimlənməlidir. Bu da bizdə yoxdur. Ona görə də bu, praktikada problemə gətirib çıxarır. Tutaq ki, kimsə bir restoran, iaşə müəssisəsi işlədir. Buranı işlədən şəxs istəyir ki, bufetçi, yaxud da ki, qarson olan şəxs vizual baxımdan gözəl qızlar olsun. Məsələn, bir var ki, 60 yaşlı saqqallı bir kişi süfrəyə yemək gətirsin, bir də var ki, 21 yaşlı bir qız. Bu cür faktorları nəzərə almaq lazımdır. Bu isə qanunla tənzimlənməyənə qədər qanunazidd hərəkət sayılır. Azərbaycanda hotelçilik inkişaf edir və qeydiyyat şöbəsində cavan oğlan və qızların çalışması daha məqsədəuyğundur, nəinki yaşlı adamların. Əgər bu məqsədəuyğunluq sübuta yetirilə bilirsə, o zaman bu qanuniləşdirilməlidir. Yaxud da müəyyənləşdirilməlidir ki, harada yalnız qadınlar, harada yalnız kişilər çalışa bilər. Belə peşələr və iş yerləri müəyyən olunandan sonra Nazirlər Kabineti bunu xüsusi qərarla təsdiq edə bilər. Bu da qanunvericilik aktı olar. Ancaq bu bizdə yoxdur".

**S.Məmmədov bu cür situasiya ilə üzləşən şəxslərin məhkəməyə müraciət etməsi üçün formal bir hüququ olduğunu dedi:** "Formal olaraq belə bir hüquq var. Tutaq ki, hər hansısa bir iş yerinə peşə hazırlığı tələb olunur və bu iş üçün müraciət edən şəxs bu hazırlığa malikdir. Ancaq qadın olduğu üçün işə götürülmür. Buna bizdə gizli diskriminasiya deyirlər. Qadınları bu əlamətlərinə görə götürmürlər ki, o, ailə quracaq, dünyaya uşaq gətirəcək, ödənişli sosial məzuniyyətə gedəcək. Belə olan halda isə işə götürənin qayğıları artır. Digər halda, əksinə, yaşlıları götürmürlər, cavan qızları götürürlər. Bəzən elanlar verirlər ki, satıcı cavan qız tələb olunur. Bu tam qanunsuz bir şeydir. Bununla bağlı əlbəttə ki, məhkəməyə müraciət etmək olar. Amma bizim Azərbaycan məhkəmələrinin praktikasında bununla bağlı işlərə baxılması demək olar ki, yox səviyyəsindədir. Çünki perspektiv olmur. Tutaq ki, kimsə gedir ki, məni işə götür, ona demirlər ki, sən cavan qız deyilsən və yaxud da ki, kifirsən. Deyirlər ki, vakant olan iş yeri dünən dolub. Bu da başa düşür ki, əslində onu bu əlamətinə görə götürmədilər. Amma gedib onu məhkəmədə sübut edə bilmir. Buna görə də belə məsələləri məhkəmə ilə sübut etmək çox çətindir".

❑ **Günel MANAFLI,**
**"Yeni Müsavat"**

**Maliyyə Bazarlarına Nəzarət Palatası bank sektorundakı vəziyyətlə bağlı rəqəmləri açıqlayıb. Məlum olub ki, bu sektorda pozitiv göstəricilər qeydə alınıb. Məlumata görə, Azərbaycanda fəaliyyət göstərən bankların cəmi aktivləri 28.5 milyard manat, cəmi öhdəlikləri isə 24.6 milyard manat təşkil edir.**

# Bank sektorunda son durum: yaxşılaşma başlayıb?

## **Ekspert:** “Açıqlanan rəqəmlər mövcud duruma real qiymət vermək üçün əsas ola bilməz...”




Hesabata görə, 2018-ci il martın 1-nə sektorun balans kapitalı 3.9 milyard, əhalinin əmanətləri isə 7.7 milyard manat olub. 2018-ci ilin fevral ayı ərzində bank sektorunun aktivləri 1.2% (329 milyon manat), öhdəlikləri 1% (246 milyon manat), kapitalı isə 2.2% (83 milyon manat) artıb. Həmçinin 2018-ci ilin fevralında bankların nağd vəsaitlərinin həcmi artıb. Banklar 1 milyard 296 milyon manat nağd vəsaitə malikdir. Nağd vəsaitlərin artımı ilə yanaşı, Mərkəzi Bankda müxbir hesabların həcmi də yüksələrək 2 milyard 740 milyon manata çatıb. Eyni zamanda banklar da daxil, maliyyə qurumlarındakı depozitlər azalaraq 7 milyard 814 milyon manata düşüb.

Bank sektorunda ixtisarlar dövrü də artıq geridə qalıb, işçilərin azalması tendensiyası dayanıb. MBNP-nin açıqladığı rəqəmlərə görə, təkcə bir ay ərzində bank sektorunda 124 nəfər işə qəbul olunub.

Qeyd edək ki, hazırda Azərbaycanda 30 bank fəaliyyət göstərir. Bunlardan 2-si dövlətin, 28-i isə özəl banklardır. Bankların 15-i xarici kapitallıdır. Banklarla bağlı əsas neqativ informasiya isə kreditləşmənin 30%-ə yaxın azalmasıdır. Kredit portfelində təkcə bir ayda azalmalar 15 milyon manat təşkil edib və portfel 257 milyon manatdan 242 milyon manata düşüb. Son ildə isə banklar kreditləşməni 29,3% azaldıb.

**Sabiq maliyyə naziri Fikrət Yusifov “Yeni Müsavat”a açıqlanmasında bildirdi ki, bank sektorunun cüzi inkişafını göstərən rəqəmlərin nədən qaynaqlandığını araşdırmağa ehtiyac var:** “Nəzarət Palatasının açıqladığı göstəricilər ölkənin bank sektorunda mövcud duruma real qiymət vermək üçün əsas ola bilməz. Bir ay ərzində bank sektorunda aktivlərin 1,2% artması bankların fəaliyyətinin yaxşılaşması anlamına gələ bilməz. Bu səbəbdən də həmən artımın nəyin hesabına baş verdiyini aydınlaşdırmaq lazımdır. Durumu obyektiv qiymətləndirmək üçün ilk növbədə bankların cəlb edib yerləşdirdikləri vəsaitlərin vəziyyətini təhlil etmək lazımdır. Bu sahədəki göstəricilər isə son bir neçə ildə pisləşməkdə davam edir. Bu gün bank sektorunda iqtisadiyyatı kreditləşdirməklə bağlı real addımlar atıldığı müşahidə olunmur, ümumi kredit qoyuluşları azalır, vaxtı keçmiş kreditlərin xüsusi çəkisi isə ümumi kredit qoyuluşunda durmadan artır. Dediklərimizi Mərkəzi Bankın saytında yerləşdirilmiş statistik rəqəmlər əsasında izah etsək, onda hər şey aydın olar”.

**Ekspertin sözlərinə görə, ilin birinci rübünün başa çatmasına baxmayaraq AMB-nin saytında nədənsə hələlik yanvar ayının məlumatları öz əksini tapa bilib:** “Bu səbəbdən də son üç ilin yanvar ayına olan məlumatları təhlil etməklə vəziyyəti qiymətləndirməyə çalışaq. Beləliklə, 2016-cı ilin yanvar ayında milli valyutada kredit qoyuluşu 10 milyard 188,2 milyon manat təşkil edib. Həmən tarixə vaxtı keçmiş kreditlərin məbləği 659,5 milyon manat və ya manatla kredit qoyuluşunun 6,5%-i səviyyəsində olmuşdu. 2017-ci ilin yanvar ayında bu rəqəmlər müvafiq olaraq 8 milyard 406,8 milyon manat, 738,9 milyon manat və 8,8% təşkil edib. Cari ilin yanvar ayında isə manatla kredit qoyuluşu 2016-cı ilin yanvar ayı ilə müqayisədə 32,3% azalaraq, cəmisi 6 milyard 899,9 milyon manat təşkil etsə də vaxtı keçmiş kreditlərin həcmi 22,3% artaraq 806,9 milyon manata çatmışdır ki, bu da cari ilin yanvar ayında manatla verilən kreditlərin 11,7%-i deməkdir. Müqayisə apardığımız dövrdə xarici valyuta ilə verilmiş kreditlər sahəsindəki vəziyyət daha acınacaqlıdır. Belə ki, 2016-cı ilin yanvar ayında xarici valyuta ilə verilmiş kreditlərin ümumi həcmi 11 milyard 011,3 milyon manat, vaxtı keçmiş kreditlərin məbləği 655,1 milyon manat və ya xarici valyutada verilmiş kreditlərin 5,9% -i səviyyəsində olmuşdu. 2017-ci ildə bu rəqəmlər müvafiq olaraq 8 milyard 298,3 milyon manat, 894,2 milyon manat və 10,8% təşkil edib”.

**İqtisadçı onu da vurğuladı ki, kredit verilməsi ilə bağlı durum geriləsə də, problemli kreditlərin həcmi durmadan artır:** “Cari ilin yanvar ayında isə xarici valyuta ilə kredit qoyuluşu 2016-cı ilin yanvar ayı ilə müqayisədə 56,8% azalaraq cəmisi 4 milyard 756,3 milyon manat təşkil etsə də vaxtı keçmiş kreditlərin həcmi 35,7% artaraq 889,0 milyon manata çatıb ki, bu da cari ilin yanvar ayında xarici valyutada verilən kreditlərin 18,7%-i deməkdir. Rəqəmlərdən göründüyü kimi, son üç ilin yanvar ayları ərzində milli və xarici valyutalarda verilmiş kreditlərin həcminin kəskin azalmasına baxmayaraq vaxtı keçmiş kreditlərin həcmi sürətlə artır. Bu isə bank sektorunda vəziyyətin heç də ürəkaçan olmadığından xəbər verir. Bank sektorunda islahatlar sürətlənməli və bankların fəaliyyətində ciddi dönüş yaradılmalıdır. Yüksək faizlə verilən qısamüddətli istehlak kreditləri praktikası bank sektorunu acınacaqlı vəziyyətə saldı. Bu vəziyyətdən çıxmağın yeganə yolu real sektoru kreditləşdirməyə üz çevirməkdən keçə bilər”.

**❑ Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

# “Qəhrəman”ın salamat qalması, küt çıxması...



**Samir SARI**

**Şairin sözü olmasın, “gözümü dünyaya açanda ilkin”, eşitdiyim bir neçə sözdən biri də Xanlar olmuşdu. Hər yer Xanlar, hər gün Xanlar.**

Rayon mərkəzinin baş küçəsi Xanların adını daşıyırdı, avtovağzalın önündə, düz yolun ortasında büstü də vardı, bütün maşınlar onun başına dolanıb keçirdi.

Bir az böyüdük, kitablarda da eyzən Xanlardan söhbət gedirdi. Məlum oldu ki, bu məşhur inqilabçının adına və soyadına şəhərlər, rayonlar *(indiki Göygöl və Samux - o vaxt Xanlar və Səfəraliyev),* qəsəbələr, küçələr, məktəblər və sair və ilaxırlar var.

Yerlimiz idi, qürur duyurduq. Gənc yaşında öldürülmüşdü - üzülürdük. Amma heç vaxt da ağlımıza gəlmirdi ki, məsələni təftiş edək, soruşaq ki, axı bu 22 yaşlı gənc nə edib, belə qəhrəman olub.

Heç nə. Mərhum Xanlar fəhlə hərəkatının fəalı olub, inqilabi vərəqələr yayıb, tətillərdə iştirak edib, axırda bir alçaq neftxuda Dağıstandan muzdlu qatil gətirdib, o da onu sevgilisi ilə görüşəndə arxadan güllə ilə vurub.

İndi o qatil Şəmistanın başına gələnləri də yazım, sonra sözü nəyə gətirdiyimi qeyd edərəm.

Xanların atası Həsən kişi bu işi belə qoymur, məsələni həmkəndlisi qoçu Əbdülə danışır, o da dostu Qazıməmmədlə birlikdə Dağıstana gedir, Şəmistanı tapırlar. Əbdül onu namərdcəsinə arxadan vurmur, duelə çağırır. Bir-birindən 100 metr aralı durub, atışmalıymışlar. Şəmistanın püşkdə bəxti gətirmir, ilk gülləni qoçu Əbdül atası olur. O da tuşqul adam imiş, gülləni düz Şəmistanın - Xanların qatilinin alnından vurur, qanlı köynəyini gətirib verir Həsən kişiyə.

Belə bir hadisə. Bu, əlbəttə, indiki terminlərlə desək, kriminal aləmə aid hesablaşmadır. Ancaq baxaq, görək, 1917-20-ci illərdə hakimiyyətə gələn bolşeviklər nə etdi?

Onlar Xanları şişirtdilər, böyütdülər, Lenin, Stalin, Kirov, Orconikidze, Trotski kimi öydülər, öydülər, böyük inqilab xadiminə çevirdilər və xatirəsini hər cür əbədiləşdirdilər.

Bəs Şəmistan Xanları vurmasaydı və yoldaş Səfəraliyev 1920-ci ilin 28 aprelindən sonra ölkəmizdə dövlət işinə irəli çəkilsəydi *(güman ki, çəkiləcəkdi, adamın az-çox təhsili olub),* nə olacaqdı? Heç nə. Bir müddətdən sonra bütün köhnə inqilabçılar kimi onu da tutub güllələyəcəkdilər. Ya 1927-29-cu illərdə adını trotskiçi qoyacaqdılar, ya da Zinovyevin, Buxarinin adamı kimi dolaşdıracaqdılar, axır ki, o, Qəzənfər Musabəyov, Həmid Sultanov, Çingiz İldırım, Ruhulla Axundov, Əliheydər Qarayev və digər yüzlərlə inqilabçı yoldaşları kimi repressiyadan sağ çıxmayacaqdı.

Bəli, bu işlər belədir. Tez ölən inqilabçı qəhrəman olur, axıra qalan isə küt çıxır, onu “vətən xaini”, “gizli əks-inqilabçı” kimi cəzalandırırlar.

Bu da ona görə belədir ki, insanlar adi adamlardan qəhrəman düzəltməyi sevirlər *(mətləb üstünə gəldik, nəhayət).* Həm də təkcə sevmirlər, bunu əla bacarırlar. Üfürür, şişirdir, böyüdürlər. Bir gün görəndə ki, o böyütdükləri persona kabusa dönüb, özünü bir şey zənn edir, bunları əzir, sıxır, bax o zaman təhəmmül edə bilmir, adamı öz məcrasına qaytarır, iynəni batırıb şarı partladırlar, məsələ bitir.

1988-ci ildə xalq çox adamı şişirtmiş, göyə qaldırıb dirijabla döndərmişdi, amma sonra peşman oldu. Əgər o vaxt, o şişirdilmiş meydan qəhrəmanlarının (ismi lazım deyil) birinin başına bir iş gəlsəydi, söz yox ki, qanı o vaxtın rəhbərlərinin üstündə qalacaqdı. Amma əmin olun ki, bu saat biz həmin “qəhrəman”ın adını daşıyan küçədən keçir, hər il onun doğum və ölüm günlərində abidəsi önünə gül qoyurduq. Halbuki hazırda o salamat “qəhrəman” küçədə önümüzə çıxanda görməzliyə vururuq.

O gün az qala bir qızı qəhrəmana döndərəcəkdik. Bir şey qalmamışdı, artıq xanımın personası üfürülməkdəydi. Başına bir iş gəlmiş olsa, Nigar və Həcərin başçılıq etdiyi siyahıya düşəcəkdi. Xoşbəxtlikdən, qız tapıldı və məlum oldu ki, sağ-salamatdır, rəfiqəsigildəymiş.

Keşkə, Xanlar da o vaxt rəfiqigildə olaydı, sevgilisi ilə ailə quraydı. Onda Şəmistan da salamat qalardı.

Hərçənd Xanlar 1907-ci ildə salamat qalsaydı və 1937-ci ildən salamat çıxmasaydı, onda onun qardaşı oğlu Rüstəm Səfərəliyev də sonradan rayon partiya komitəsi birinci katibi ola bilməzdi.

**Ey GD dünya...**



# Bakı və İrəvanın "4 günlük müharibə"dən sonrakı savaş göstəriciləri

## Ötən iki ildə Azərbaycan hərbi-döyüş potensialını daha da böyüdərək, düşmən üzərində əzici üstünlüyünü saxlayıb; **rusiyalı analitik:** "Ermənistan ordusunda texnika və döyüş sursatlarının köhnəlməsi prosesi gedir..."

**Bir neçə gün öncə "Qlobal Atəş Gücü" şirkəti dünya ordularının növbəti reytinq cədvəlini hazırlayıb. 2017-ci ilin nəticələrinə görə, Azərbaycan dünyanın 58-ci ən güclü ordusuna sahibdir. Yeni reytinq cədvəlində Azərbaycan keçən il tutduğu mövqeni dəyişməyib. Bu göstəricisinə görə ölkəmiz Cənubi Qafqazda lider, postsovet məkanı ölkələri arasında isə Ukrayna, Özbəkistan, Belarus və Qazaxıstandan sonra beşinci yeri tutub. Qafqazdakı qonşularımızdan Gürcüstan 82-ci, Ermənistan isə 93-cü yerdə qərarlaşıb.**




Şirkətin reytinq cədvəlində ilk onluqda ABŞ, Rusiya, Çin, Hindistan, Fransa, Britaniya, Yaponiya, Türkiyə, Almaniya və Misir öz yerlərini qoruyub. Azərbaycanın digər iki müttəfiqi - Pakistan və İsrail 13 və 15-ci, cənub qonşumuz İran isə 21-ci yeri tutub.

Ancaq bizi təbii ki, ən çox işğalçı ölkənin göstəriciləri maraqlandırır. Bu cədvəldən də bir daha məlum olur ki, açıq savaşda Ermənistan Azərbaycan qarşısında tab gətirə bilməz. Çünki Azərbaycan hərbi-texniki göstəricilər üzrə də, iqtisadi və insani resurslar üzrə də düşmən ölkəni xeyli üstələyir.

*****

**Azərbaycan prezidenti İlham Əliyevin Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində bu xüsusda söylədiyi aşağıdakı fikirlər diqqət çəkir. Ölkə başçısı deyib ki, Azərbaycanın hərbi potensialının möhkəmləndirilməsi əsas prioritetlərdən biridir və bu istiqamətdə çox işlər görülüb.**

"Müxtəlif reytinqlər tərtib edən beynəlxalq ekspertlərin və təşkilatların hesablamalarına görə, bu gün Azərbaycan ordusu dünyanın ən yaxşı təchiz olunmuş və döyüş qabiliyyətli 50 ordusu sırasına daxildir. Biz silahların yenilənməsi prosesini praktiki olaraq başa çatdırmışıq. Ordumuz həm hücum, həm də müdafiə xarakterli ən müasir, yüksək dəqiqliyə malik texnoloji silahlarla təchiz olunub. Biz silahları ən yaxşı istehsalçılardan alırıq və bu silahlar bizə özümüzü yetərincə inamlı hiss etmək imkanı verir. Təbii ki, təkcə silahlanma sayəsində güclü ordu yaratmaq olmaz. Buna görə əlbəttə, ordumuzun döyüş qabiliyyətinin artırılması, intizamın möhkəmləndirilməsi üçün çox iş görülüb. Əlbəttə ki, çoxsaylı təlimlər və treninqlər bizdə hələlik mövcud olan çatışmazlıqları göstərir" - prezident vurğulayıb.

**Dövlət başçısı Silahlı Qüvvələrin maddi-texniki bazasının xeyli möhkəmləndirildiyini də qeyd edib:** "Bizim bütün hərbi bazalarımızın və hərbi şəhərciklərimizin 80 faizindən çoxu əslində yenidən inşa edilib. Qarşıdakı illərdə biz maddi-texniki baza ilə bağlı prosesi tam başa çatdıracağıq. Təbii ki, qarşıdakı illərdə biz hərbi quruculuq işi ilə fəal məşğul olacağıq. Silahlanın alınması məsələsinə gəldikdə, bu iş daha böyük seçim əsasında, daha konkret aparılacaq, müvafiq məsələlərin həlli üçün həyata keçiriləcək. Bununla paralel olaraq, təqribən 10 il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Ona görə ki, o vaxta qədər biz hərbi məhsullar istehsal etmirdik. Bu gün isə belə məhsulları nəinki istehsal edir, həm də ixrac edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir. Bu məhsullar beynəlxalq standartlara uyğundur və bizim bir sıra göstəricilər üzrə idxaldan asılılığımızı azaldır, həmçinin yaxşı ixrac potensialı yaradır. Belə ki, Azərbaycan silah ixrac edən ölkəyə çevrilir".

*****

**Rusiyalı tanınmış analitik və tarixçi Oleq Kuznetsovun silahlanma, hərbi göstəricilərlə bağlı Azərbaycan və Ermənistan arasında müqayisəli təhlili də maraq doğurur. "Yeni Müsavat"ın "Vestnik Kavkaza" nəşrinə istinadən verdiyi xəbərə görə, Oleq Kuznetsov diqqəti əvvəlcə 4 günlük aprel müharibəsindən keçən iki ildə Azərbaycanın öz hərbi potensialını durmadan artırmasına və qazandığı döyüş təcrübəsinə, Ermənistanın müdafiə qabiliyyətinin isə əksinə, daha çox aşağı düşməsinə diqqət çəkib.**

"Bu müddətdə Azərbaycan ordusu Rusiya və İsrail silahları hesabına kifayət qədər möhkəmlənib, güclənib. Bu mənada Azərbaycan ordusunun hərbi-texniki potensialının ciddi şəkildə böyüdüyünü söyləmək olar. Üstəgəl, ordu 2016-cı ildə qazandığı döyüş təcrübəsini nəzərə alıb. Eyni zamanda döyüş şəraitində qoşun birləşmələrinin və vasitələrin qarşılıqlı əlaqələrini gücləndirmək üçün döyüş qruplaşmalarından istifadə eləməklə nəhəng sayda komanda-qərargah təlimləri keçirib. Ötən iki ildəki döyüş təcrisi ciddi praktik təcrübə əldə etməyə imkan verib - nəyin hesabına ki, komanda heyətinin taktiki hazırlığı, bütövlükdə Azərbaycan Silahlı Qüvvələrinin təcrübəsi 2016-cı ildəkindən xeyli yuxarı qalxıb", - deyə o qeyd edib.

**Analitikin sözlərinə görə, iki ildə erməni ordusu praktik olaraq silahlanmaya yeni heç nə qəbul eləməyib - yalnız bir neçə yüz atıcı silah istisna olmaqla:** "Hansı ki, müasir döyüş şəraitində böyük önəm kəsb eləmir. Həmçinin düşünmürəm ki, erməni ordusunun döyüş hazırlığı bu müddətdə artıb. Orada hərbi texnika və döyüş sursatlarının təbii köhnəlməsi prosesi gedir. Bütövlükdə 2016-cı illə müqayisədə söyləmək olar ki, erməni silahlı qüvvələrində vəziyyət prinsipial olaraq dəyişməyib. Bu, o deməkdir ki, konfliktin qızışacağı təqdirdə Azərbaycan keyfiyyət etibarilə daha yüksək səviyyədə olacaq, nəinki Ermənistan. Hazırda döyüş əməliyyatlarının bərpası ehtimalı azdır. Ermənistan hər hansı ciddi hərbi-texniki potensiala malik olmadığından hücuma başlamayacaq, hərçənd, cəbhə xəttində gərginlik üçün təxribatlar törətməyə davam edəcək".

*****

Təmas xəttində vəziyyət isə sülh danışıqlarındakı durğun vəziyyətə adekvat olaraq qalır. Yəni sülhün yeganə alternativi kimi müharibə ehtimalı öz aktuallığını ciddiliyi ilə saxlayır. Bir sıra ekspertlər hesab edir ki, bu ehtimal Azərbaycan və Ermənistanda seçki zolağından tam çıxdıqdan sonra (11 aprel və 9 aprel) daha da güclənə bilər, əgər təbii ki, vasitəçi dövlətlər konfliktin həllində real dönüşə gətirəcək təkliflər verməsə. Söhbət öncəliklə Ermənistanın əsas himayəçisi Rusiyadan gedir...



## Çindən Azərbaycana Qarabağ dəstəyi - "Mövqeyimiz dəyişməzdir..."

**"Çinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi aydın və dəyişməzdir". Musavat.com-un məlumatına görə, bu sözləri Çin Xalq Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Vey Cinhuan APA-ya müsahibəsində deyib.**

"Çin tərəfi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edir və münaqişənin beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlara uyğun olaraq dialoq və danışıqlar yolu ilə həllinin tərəfdarıdır. Bu, təkcə tərəflərin maraqlarına xidmət etmir, eyni zamanda da mövcud regiona sülh, sabitlik və inkişaf gətirəcək", - deyə o əlavə edib.

Qeyd edək ki, Çin BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir.

YENİ MÜSAVAT
N 74 (6963) 7 aprel 2018

**Aprelin 5-də İqtisadiyyat Nazirliyi yeni istifadəyə verilmiş Neftçala Sənaye Məhəlləsinə mediatur təşkil edib. Mediaturda KİV nümayəndələri ilə bərabər iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov və bir qrup iqtisadçı ekspert də iştirak edib. Səfər iştirakçıları sənaye məhəlləsində görülən işlər və bu yaxınlarda istifadəyə verilmiş "Khazar" Avtomobil Zavodunun fəaliyyəti ilə əyani tanış olublar.**




# Neftçala Sənaye Məhəlləsində bir gün

## "Khazar" avtomobilləri "Made in Azerbaijan" brendi altında həm yerli, həm də xarici bazarlara çıxarılır

Musavat.com-un əməkdaşının da iştirak etdiyi mediaturda ilk olaraq sənaye məhəlləsi ilə ümumi tanışlıq olub. Bildirilib ki, hazırda Neftçala Sənaye Məhəlləsində avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları, kağız stəkanlar və hazır içkilər istehsalı, modul tipli məktəb binalarının quraşdırılması, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir.

Sənaye Məhəlləsinin iştirakçıları tərəfindən istehsal sahələrinin yaradılmasına 45,3 milyon manat investisiya yatırılıb, 500-ə yaxın daimi iş yeri açılıb. Həmçinin Sənaye Məhəlləsində sahibkarlara ümumi mühasibatlıq, hüquqi məsləhətlər, sığorta, poçt, texniki kitabxana, "Start-up"lar üçün ofis, yeməkxana və tibbi xidmətlər göstərilir.

Öyrəndik ki, sahibkarların marağı nəzərə alınaraq yeni layihələrin icrası məqsədilə Neftçala Sənaye Məhəlləsinin ərazisinin əlavə 10 ha genişləndirilməsi nəzərdə tutulur və artıq müvafiq prosedurlara başlanılıb.

Burada fəaliyyət göstərən müəssisələrdən biri balıq, toyuq və mal-qara yemi istehsalını həyata keçirən "KƏHF" Məhdud Məsuliyyətli Cəmiyyətidir. İllik istehsal gücü 25 min ton olan müəssisənin yaradılmasına 12 milyon manat investisiya yönəldilib. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müəssisəyə 5,9 milyon manat məbləğində güzəştli kredit ayrılıb. Həmin müəssisəyə İnvestisiya Təşviqi Sənədi verilib ki, bu, sahibkara 1,2 milyon manat vəsaitə qənaət etmək imkanı yaradır. Müəssisədə 30 nəfərə yaxın şəxs işlə təmin edilib.

**Sənaye məhəlləsinin digər bir rezidenti "Gilan PİVOT" MMC-dir. Müəssisədə müasir texnologiyalar əsasında dairəvi suvarma sistemləri istehsal olunur. Bu yeni texnologiya əkin sahələrinin suvarılma sisteminin daha da asanlaşdırılmasına xidmət edir. Ümumi investisiya dəyəri 1 milyon manat olan müəssisənin illik istehsal gücü 60-80 suvarma sistemidir. "Gilan PİVOT" MMC-nin rəhbəri Ruslan Ələsgərov bildirib ki, istehsal mərhələli şəkildə həyata keçirilir:** "İlkin mərhələdə birləşdirici borular, aprel-may ayında künclüklər, sentyabr ayında təkərlər arası resursların və digər avadanlıqların yığılması burada olacaq. Sentyabr ayına qədər suvarma sisteminin yığılması başa çatacaq. Bir sistem 800 metrə qədər uzana bilir və 130 ha yeri suvarmaq olur.

Hacıqabul rayonunda Padarçöl sahəsində 5 min ha ərazinin suvarılması üçün 76 ədəd sistem artıq quraşdırılıb. Bundan əlavə, yeni sifarişlərimiz də var. Həm Padarçöl, həm də Biləsuvar rayonunda 2 min ha ərazinin suvarılması üçün 32 ədəd pilot suvarma sistemi hazırlanır. Suvarma sisteminin bir ha üçün təxmini maya dəyəri 1050-109- dollar civarındadır".

Neftçala Sənaye Məhəlləsində olan rezidentlərdən biri də modul tipli məktəb binalarının quraşdırılması ilə məşğul olan "Providence Limited" MMC-dir. 80 min manat investisiya yönəldilən müəssisədə hazırda 15 nəfər çalışır. Bu şirkətin hazırladığı modul tipli məktəblər cənub rayonlarında quraşdırılacaq. Bundan əlavə, burada konservləşdirilmiş və soyudulmuş təzə balıq istehsal edən "Azproduct" MMC, məhəllədə plastik məmulatlar, o cümlədən kənd təsərrüfatı təyinatlı taralar istehsal edən "Metak" MMC, polietilen suvarma boruları istehsal "Toğrul-2008" MMC də fəaliyyət göstərir.














Neftçala Sənaye Məhəlləsinin diqqəti çəkən ən iri rezidenti "Khazar" Avtomobil Zavodudur. Bildirilib ki, "Azərmaş" MMC və "İran Khodro" şirkətlərinin birgə istehsalı olan bu zavod regionun inkişafında, yeni iş yerlərinin yaradılmasında, ölkə iqtisadiyyatına investisiya qoyuluşunun artmasında, eləcə də Azərbaycan-İran iqtisadi əlaqələrinin genişləndirilməsində əhəmiyyətlidir.

"Azərmaş" MMC-nin İdarə Heyətinin sədri Emin Axundov bildirib ki, zavodun ümumi dəyəri 15 milyon ABŞ dollarıdır. Zavodun səhmlərinin 75%-i "Azərmaş" ASC-yə, 25%-i isə "İran Khodro" şirkətinə məxsusdur. 10 hektar ərazidə tikilmiş avtomobil zavodunun illik istehsal gücü 10 min avtomobildir. Zavodda İran İslam Respublikası və Avropanın aparıcı ölkələrinin müasir texnologiyalar, avadanlıq və mexanizmləri əsasında "Runna", "Samand", "Soren", "Dena", "Peugeot-206", "Peugeot-207", "Renault-Tondar", "Renault-Pickup" kimi avtomobil modelləri istehsal olunur.

"Khazar" Avtomobil Zavodunda istehsal edilən avtomobillər AVRO-5 və beynəlxalq təhlükəsizlik standartlarına tam uyğundur. Bu avtomobillər "Made in Azerbaijan" brendi altında həm yerli, həm də xarici bazarlara çıxarılacaq. İldə 2 min avtomobilin ixracı planlaşdırılır. Bu avtomobillərin MDB, Yaxın Şərq və Afrika ölkələrinə ixracı nəzərdə tutulur. Avtomobillərin istehsalı ilə tanışlıqdan sonra onun suya və yolsuzluğa davamlılığını öyrənmək üçün test-drive edildi. Sonda səfərdə iştirak edən iqtisadçı ekspertlərin də fikirlərini aldıq.

**İqtisadçı Vüqar Bayramov bildirdi ki, Azərbaycanda avtomobil istehsalının təşkil edilməsi qeyri-neft sektorunda kifayət qədər innovativ müəssisənin istehsalı kimi qiymətləndirilmədir:**

"Azərbaycan qeyri-neft sektorunda bir sıra məhsulların istehsalını həyata keçirir, amma avtomobil istehsalı spesifikdir, innovasiya tələb edir, eyni zamanda bazarda tələbin olduğu məhsuldur. İlkin olaraq illik 10 min avtomobilin istehsal edilməsi bir tərəfdən idxaldan asılılığın aradan qaldırılması baxımından vacibdir. Nəticədə idxal olunan avtomobillərin bir hissəsi yerli bazar hesabına ödəniləcək. Gələcəkdə ixrac imkanlarının artırılması ölkəyə xarici valyutanın daxil olması baxımından vacibdir. Belə zavodun qurulması bazara müasir standartlar, Azərbaycan brendi ilə keyfiyyətli məhsulların çıxarılmasına imkan verməklə yanaşı, məşğulluq, innovasiyanın regionlara gətirilməsi baxımından önəmlidir".

**V.Bayramov qeyd edib ki, sənaye məhəlləsinin formalaşması sahibkarlar üçün yeni imkan kimi qiymətləndirilməlidir:** "Dövlət sahibkarın fəaliyyət göstərməsi üçün lazım olan bütün infrastrukturu formalaşdırıb. Nəticə etibarı ilə sahibkar formalaşdırılmış infrastrukturdan istifadə edir. Həm də sahibkar vergi güzəştlərindən yararlanır. Burada fəaliyyət göstərən sahibkarların hamısı investisiyanın təşviqi sənədindən istifadə edir. Nəticədə nəinki vergi ödənişləri, texnologiyanı ölkəyə gətirən zaman güzəşt əldə etmək imkanı qazanır. Bu baxımdan sənaye məhəlləsinin formalaşması və innovasiyanın yayılması sahibkarlar üçün yeni imkandır. Bu, qeyri-neft istehsalının artırılması baxımından vacibdir, həm də bu, qeyri-neft ixracının formalaşdırılması üçün bir zəmindir".

Qeyd edək ki, Neftçala Sənaye Məhəlləsi Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 24 sentyabr 2017-ci il tarixində açılıb. Burada dövlət vəsaiti hesabına sahibkarlar üçün bütün infrastruktur yaradılıb. Belə ki, sənaye məhəlləsində 5 MVt gücündə transformator, 25 m3/saat sutəmizləyici qurğu, 100 m3/saat gücündə təbii qaz təchizatı, rabitə və nəqliyyat infrastrukturu sahibkarların istifadəsinə verilib, abadlıq işləri görülüb. Sənaye Məhəlləsinin ərazisində yüksək standartlara cavab verən 7 istehsal modulu (6922 m2), inzibati bina (1200 m2, 2 mərtəbə), texniki və köməkçi binalar (1000 m2) tikilib.

**Əli RAİS**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 74 (6963) 7 aprel 2018



## Leyla Şıxlinskayanın məhkəməyə gəlməsi tələb olundu

**Leyla Şıxlinskayanın rəhbərlik etdiyi eyniadlı klinikanın işçiləri növbəti dəfə hakim qarşısına çıxarılıb. Onlar külli miqdarda vergidən yayınmaqda ittiham edilirlər.**

Musavat.com xəbər verir ki, təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə baş tutub.

Məhkəmə prosesində Səbuhi Sadıqov şahid qismində ifadə verib. S.Sadıqov klinikada cərrah işlədiyini söyləyib. O, klinikada aparılan araşdırmalar zamanı dindirildiyini söyləyib. S.Sadıqov maaşı nağd şəkildə mühasibatlıqdan aldığını deyib. Şahid 2013-cü ildə klinikadan ayrıldığını qeyd edib.

Digər şahid isə Nigar Əlizadə olub. O, klinikada mama-ginekoloq olaraq çalışdığını və maaşı nağd şəkildə, mühasibatlıqdan aldığını söyləyib. N.Əlizadə maaşdan əlavə görülən işə görə də faiz aldığını deyib.

Prosesdə məlum olub ki, Leyla Şıxlinskaya məhkəməyə məktub göndərərək işlə əlaqədar prosesdə iştirak edə bilməyəcəyini bildirib. Amma hakim bildirib ki, bu müraciət qəbul edilmir və növbəti dəfə bildiriş göndərilərək Leyla Şıxlinskaya məhkəməyə dəvət ediləcək.

Məhkəmə aprelin 13-də davam edəcək.

Qeyd edək ki, təqsirləndirilən şəxslərin arasında klinikanın baş mühasibi olmuş Şəhla Abbasova, Polad Əliyev, Səkinə Qasımova, Aytən Hüseynova, Mədinə Hüseynova, Yelena Abdullayeva var.

Onların hər biri barəsində polis nəzarətinə verilmə qətimkan tədbiri seçilib. Təqsirləndirilən şəxslər Leyla Şıxlinskayanı, klinikanın təsisçisi isə keçmiş işçilərini ittiham edir.

Klinikanın fəaliyyəti ilə əlaqədar açılan cinayət işi ilə bağlı məlum olan odur ki, adıçəkilən şəxslərin əməlləri barədə əvvəlcə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində cinayət işi başlanıb. İstintaqın davam etdirilməsi üçün iş Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırması Departamentinə göndərilmişdi. Bu ittihamı da Leyla Şıxlinskaya rəhbərlik etdiyi klinikanın yeddi əməkdaşına qarşı irəli sürmüşdü.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə; külli miqdarda törədildikdə) və 213-cü (vergidən yayınma) maddələri ilə ittiham edilirlər.

**❑ İ.MURADOV,**
**Musavat.com**



# AzTV sədrinin "Şamaxı əhvalatı"nın pərdəarxası

## Qulu Məhərrəmli: "Məhkəmədə üzə çıxanlar dövlətin, prezidentin ayırdığı maliyyənin necə xərcləndiyini göstərir"

**"Bu işdə 6 milyona yaxın puldan, əmlakdan söhbət gedir. Arif Alışanovda hardandı bu pullar? Necə qazanıb? Hansı yolla?" Bu suallar Bakı Ağır Cinayətlər Məhkəməsində Arif Alışanovun "zərərçəkmiş" olduğu iş üzrə keçirilən prosesdə səslənib. Vəkillər AzTV sədri Arif Alışanovun adının zərərçəkən statusunda keçdiyi iş üzrə bu suallara aydınlıq gətirilməsini vəsatətlə tələb etmişdilər.**

Lakin hakimlər vəsatəti baxılmamış saxlayıb "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Arif Alışanovun bunca sərvətinin mənbəyinin aydınlaşdırılmasını əngəlləmişdilər. 1 aydan çoxdur ki, məhkəmədə verilən bu suallar açıqdır. İctimayyətdə belə bir fikir formalaşıb ki, ölkədə fəaliyyət göstərən bütün telekanalların rəhbərləri Arif Alışanov kimi böyük sərvət sahibdirlər. Hətta bəziləri media kapitanlarını da rəsmi milyonçular sırasına qatmağa tələsirlər.

Əslində vəziyyət necədir? Arif Alışanovun AzTV sədri olaraq gəlirləri onun milyonçular sırasına qatılmasına imkan verirmi?

**Media üzrə ekspert və jurnalist Qulu Məhərrəmli deyir ki, əslində sualın cavabı ortalıqdadır:** "Alışanovun pullarının mənbəyi haqda neçə illərdir mətbuatda yazılar dərc olunur. Müxtəlif maliyyə əməliyyatlarında, pulların nağdləşdirilməsi ilə bağlı məharəti haqda danışırlar. Tenderlərdəki qanunsuzluqlar, azad zonalara ötürülən pullarla bağlı da adı hallanır. Şamaxı əhvalatı da ortaya çıxandan sonra bir daha sübut olunur ki, yazılanlar havayı deyil, pulun mənbəyi haradandır. Düzdür, Alışanov izahatlarında göstərir ki, qohum-əqrəba yığışıb pul qoyublar. Bir qohumu 3 milyon, o biri 2 milyon qoyub. Belədirsə, niyə məhz bu adam ortada fəallıq edib?"

**Qulu Məhrəmli deyir ki, baş verənlər bəzi adamların dövlət büdcəsinə divan tutmasının sübutudur:** "Bu məhkəmə təkcə maddi məsələləri deyil, həm də mənəvi məsələləri də ortaya çıxarıb. Məsələn, orada qətl hadisəsi haqda söhbət açılır. Əslində bu məsələ çox ciddi şəkildə araşdırılmalıdır. Mətbuat da bu məsələnin araşdırılmasından kənar qalmamalıdır. Çox məyusedicidir ki, AzTV tarixində belə bir fiqur ortaya çıxıb. Bu məsələlər təkcə televiziyanın adını batırmır, həm də orada çalışan çox dəyərli insanların adına xələl gətirir".

**Ekspert deyir ki, məhkəmədə üzə çıxan çoxmilyonluq pul qovğası ilk növbədə korrupsiya faktları haqda fikirlər formalaşdırır:** "AzTV-dən fərqli olaraq İctimai Televiziyada çalışanlar aybaay maaş, quruluş haqqı alırlar. Televiziyada texnika alınması, quruluş haqlarının ödənməsi, dizayn, dublyaj məsələlərində rəqəmləri dolaşdırmaq, pul əldə etmək mümkündür. Bütövlükdə bu sözləri İTV sədrinə aid etmək olmaz. AzTV-dən başqa digər televiziyalarda bu cür irimiqyaslı korrupsiya faktları yoxdur. AzTV-də isə var və mətbuat dəfələrlə bu haqda yazıb, bu gün də çox tutarlı faktlarla yazılmaqdadır. İTV və AzTV dövlət büdcəsindən maliyyələşdirilir. AzTv-nin ötən illərə qədər 50 milyon manat büdcəsi var idi. Sonra bu məbləği 31 milyon manata qədər endirdilər. Bu məbləğin özü də çox böyük maliyyədir. Bundan əlavə, prezidentin xüsusi göstərişi ilə texnika alınması üçün də əlavə maliyyə ayrılırdı. AzTv-nin maliyyəsi Gürcüstan və Ermənistanın bütün televiziyalarının maliyyəsindən çoxdur. Amma bu qədər maliyyənin qabağında görülən iş göz qabağındadır. İri həcmli filmlər, tamaşalar, iri maliyyə tələb edən televiziya məhsulları da ortaya çıxmır. Ona görə də məhkəmədə torpaq alınması üçün xərclənən pulların mənbəyi təxminən görünür. Bu pulların haradan formalaşması haqda fikirlər yaranır. Diqqətlə araşdırılsa, məlum olar ki, üzə çıxan çox cüzi bir maliyyədir. Başqa əməliyyatlar, başqa biznes işləri üçün də daha böyük maliyyə var. Məhkəmədə də səslənir ki, bu adamın başqa rayonlarda - Qubada, Xızıda, Zərdabda, Sabirabadda da biznesi var. Məhkəmədə üzə çıxanlar həmısı dövlətin, prezidentin ayırdığı maliyyənin necə xərcləndiyini göstərir. Prezident çıxışlarında ictimai nəzarətin gücləndirilməsinə dair tövsiyələr verir. Mətbuat ictimai nəzarətin ən təkmil, sınanmış formasıdır. Mətbuat bu məsələni müstəqil şəkildə araşdırıb ortaya qoymalıdır. Hansısa hakimin bu məsələni öz istədiyi kimi, subyektiv məsələlərlə əlaqəli araşdırması obyektiv nəticəni ortaya qoya bilməz. Hakim məhkəmədə deyir ki, bəlkə bu pullar atasından qalıb. Amma bu gülüncdür, ədalətsiz yanaşmadır. Hər bir məmur bilməlidir ki, əvvəl-axır dövlət büdcəsindən oğurladığı pulların hesabatını verəcək".

Ekspertin sözlərindən belə aydın olur ki, AzTV-də əmək haqqı problemi yaşanır. Büdcədən 31 milyon manat vəsait ayrılan bir təşkilatda əmək haqqı probleminin yaşanmasının səbəbi nədir?

Qulu Məhərrəmli deyir ki, işçilərin az bir qisminə əmək haqqı verilir: "AzTV-də yüksək vəzifə tutanlar əmək haqı alır. Bu da az bir qismdir. Orada işləyənlərin 3/4-ü əmək haqqı almır. Veriliş çəkilir, təhvil verilir. Orada komissiya var. Verilişi qəbul etmir və işçilərə də əmək haqqı yazılmır. Bu, çox dəhşətli sistemdir və bütövlükdə əmək hüquqlarının pozulmasıdır. Yüzlərlə belə işçilər var. AzTV-də çox acınacaqlı vəziyyətdir. Halbuki AzTV-yə büdcədən ayrılan 31 milyon manatdan əlavə də gəlirlər daxil olur. Sponsorluq, reklamdan gələn gəlirlərin hesabatı ictimiyyətdən gizlədilir. AzTV-də yayımlanan reklamların pulu hara gedir? AzTV-nin rejissoru Nərgiz Cabbarlı Arif Alışanovu məhkəməyə vermişdi. Həmin məhkəmədə üzə çıxdı ki, işçilərə əmək haqqı yazılıb və bu haqda məlumatlar Sosial Müdafiə Fonduna göndərilib. İşçilərə həmin əmək haqqı verilməyib! Saxta hesabatlar yazılıb və əmək haqları verilməyib. Hesab edirəm ki, bu məsələlər çox ciddi şəkildə araşdırılmalıdır".



Qulu Məhərrəmli

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsində AzTV sədri Arif Alışanova qarşı dələduzluq etməkdə və onu öldürməyə cəhddə təqsirləndirilən Şücayət Əkbərov, Qoçəli Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovun cinayət işi üzrə məhkəmə prosesi keçirilir. İttiham aktına əsasən, Ş.Əkbərov 2013-cü ilin iyulundan 2017-ci ilin yanvarınadək Şamaxıda və Bakıda külli miqdarda özgə əmlakını və əmlaka olan hüquqları aldatma yolu ilə ələ keçirmək məqsədilə dələduzluq edərək yaratdığı mütəşəkkil dəstə tərkibində qanunsuz silah, döyüş sursatı əldə edib saxlayaraq, daşıyıb-gəzdirib, başqa cinayəti gizlətmək məqsədilə, tamah niyyətli və sifarişlə iki və daha çox şəxsi təkrarən qəsdən öldürməyə cəhd edib. O, Arif Alışanovun 4 milyon 641 min 696 manatlıq əmlakını da ələ keçirməkdə təqsirli bilinir.

Cinayət materialına əsasən, Ş.Əkbərov həmin pul vəsaitləri və əmlakları geri qaytarmaq məqsədilə yaxın münasibətlərdə olduğu Munasib Namazov, Qoçəli Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovla dələduzluq cinayət əməlini gizlətmək üçün A.Alışanovu öldürmək istəyiblər. Ş.Əkbərov bunun müqabilində dəstə üzvləri Q.Cəbiyevlə M.Namazova 600 min manat pul vəd edib. Təqsirləndirilən şəxslər ittihamı qəbul etmirlər.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 74 (6963) 7 aprel 2018

# Sosial mənzillərin satışına başlanıldı - şərtlər və qiymətlər

## Nüsrət İbrahimov: "MİDA-nın təklif etdiyi qiymətlər orta bazar qiymətindən təxminən 25 faiz ucuzdur"

**Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) ilk layihəsi olan Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışına başlanılır.**

MİDA-dan verilən məlumata görə, Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu, 8 ünvanında yerləşən Yasamal Yaşayış Kompleksinin 1,2,3 və 4 saylı binalarında mənzillərin satışı mayın 7-də saat 10:00-da başlayacaq və avqustun 7-də saat 10:00-dək davam edəcək. Satışa 260 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacları ilə təmin olunub.

Vətəndaşlara güzəştli şərtlərlə təklif olunan mənzillərin satış qiyməti İpoteka və Kredit Zəmanət Fondu tərəfindən təyin edilmiş orta bazar qiymətindən aşağı müəyyən olunub. Belə ki, 1 otaqlı mənzilin qiyməti 29925 manatdan, 2 otaqlı mənzilin satış qiyməti 47282 manatdan, 3 otaqlı mənzilin qiyməti 65626 manatdan başlayır. Vətəndaş mənzili İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda illik faiz dərəcəsi 4%, müddəti 3-30 il, minimal ilkin ödəniş 10% olmaqla 1 otaqlı mənzilə 129-136 manat, 2 otaqlı mənzilə 203-236 manat, 3 otaqlı mənzilə 282-288 manat aylıq ödəniş etməlidir.

Mənzilə güzəştli şərtlərlə ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə, öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.

Nağd alanlara satış qiyməti belədir: 1 otaqlı mənzil 26932 manat, 2 otaqlı mənzil 42554 manat, 3 otaqlı mənzil 59063 manat.



MİDA-nın sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalında yaradılmış "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir. Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olan vətəndaşlar mənzil almaq hüququna malikdir. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdir.

**"MBA Group" konsaltinq şirkətinin baş direktoru, Daşınmaz əmlak sektor üzrə ekspert Nüsrət İbrahimov mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında MİDA-nın tətbiq etdiyi qiymətlərin bazar qiymətləri ilə müqayisədə daha sərfəli olduğunu diqqətə çatdırdı:** "Mən ilk gündən bu prosesin içindəyəm və gündəlik olaraq məlumat alıram. Bəzən onların iş prosesində də iştirak edirəm. Bu baxımdan mən MİDA-nın şərtlərini normal qiymətləndirirəm. Bu, ilk növbədə şəhərsalma təcrübəsidir. Biz hər zaman tənqid edirik ki, 90-cı illərdən bəri şəhərdə tikililər nizamsız şəkildə aparılır. Harada gəldi sökürlər, harada gəldi tikirlər. Bu isə müstəqillik dövründə Bakı şəhərində ilk layihədir ki, planlı şəkildə tikilir. Bütün standartlar və tikinti normativləri gözlənilir. Bu bir ilkdir və başqa tikinti şirkətlərinə də nümunədir. Bu sovetlər dövründə mikrorayonların salınması praktikasına bənzəyir və bütün tələblərə uyğun olaraq salınmış şəhərcikdir".

**Ekspert onu da vurğuladı ki, bu tam sosial layihə deyil, güzəştli mənzil layihəsidir:** "Ərazi üzrə orta qiymət nədirsə, bu mənzillər ondan 20-30 faiz ucuz qiymətə təklif olunur. Mən ötən gün mövcud rəqəmləri hesabladım. MİDA təmirli mənzillərin 1 kvadratmetrini 950 manatdan təklif edir. Bizim şirkət hər ay bazarda qiymətləri dəyərləndirir. Hesablamalarımıza əsasən, Yeni Yasamal üzrə yeni tikililərdə təmirli mənzillərin 1 kvadratmetrinin orta satış qiyməti 1250 manatdır. Yuxarı həddi 150 manat, aşağı həddi isə 1100 manat olduğundan, orta qiymət 1250 manatdır. MİDA isə 950 manatdan təklif edir, qiymət təxminən 25 faiz ucuzdur".

**N.İbrahimovun sözlərinə görə, bu mənzillərin digər bir üstünlüyü isə yerləşdiyi ərazinin şəhərsalma standartlarına uyğun qurulmasıdır:** "Yasamal rayonu şəhərsalma tələblərinə cavab verməyən bir ərazidir, binalar çox yaxın yerləşir, insan hərəkəti, avtomobillərin hərəkəti çox sıxdır. Bu şəhərcikdə isə bütün məsafələr gözlənilib, binaların hündürlüyü, əhali sıxlığı, avtomobillərin hərəkəti, infrastruktur... İnsan həyatının rahatlığı üçün hər bir şərait nəzərə alınıb. Ərazidə bağça, məktəb, xəstəxana və digər sosial obyektlər tikilib".

**Ekspertin fikrincə, insanları narazı salan əsas məqam güzəştli mənzillərin yalnız müəyyən kateqoriyaya daxil olanlara aid edilməsidir:** "Bu şərtləri MİDA müəyyənləşdirməyib, bunlar İpoteka Fondunun şərtləridir. Şərtlər hər ikisində demək olar ki, eynidir. Yalnız yeganə fərq odur ki, İpoteka Fondunda 15 faiz ilkin ödəniş tələb olunur, MİDA-da isə 10 faiz. Mənzilləri nağd əldə etmək istəyənlər də qeyd olunan şərtlərə cavab verməlidirlər. Yalnız kredit şərtlərinə uyğun olmaya bilərlər, gəlirləri daha aşağı ola bilər. Qalan şərtlər isə eynidir".

**Nüsrət İbrahimov hesab edir ki, zaman keçdikcə bu şərtlər yumşalacaq:** "Bu gün mənzilə tələbatı olan insanlar daha çoxdur. Bu baxımdan MİDA-nın təklif etdiyi mənzillərə də tələb həddindən artıq çoxdur. Bu tələb azaldıqca şərtlər də yumşalacaq".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Saxsı qablar dövrü bitir, taxta qablar dəbə minir

## Məişətimizə sürətlə girən bambuk məmulat və əşyaların üstünlükləri...

**Əvvəllər xanımların cehizinin nə dərəcədə gözəl olması onların gətirdiyi qablarla ölçülürdü. Buna görə də qız köçürməyə hazırlaşan ailələr bahalı da olsa, xüsusi zövqlə bəzədilmiş büllur qablar almağa daha çox üstünlük verirdilər. Ancaq zaman keçdikcə zövqlər və dəb dəyişdi.**

Artıq nəinki vitrinlərə qab yığılır, metal, dəmir və saxsı qablar, qaşıq və çəngəllər indi öz yerini tədricən taxta və pambukdan hazırlanan qablara verməkdədir. Son dönəmlərin mətbəx dəbi olan bambukdan hazırlanmış cürbəcür və göz oxşayan qablar mağazaların vitrinlərini bəzəyir.

Bəs olduqda bahalı olan və son zamanlarda diqqət çəkən bu qablardan istifadə sağlamlığımız üçün nə dərəcədə etibarlıdır?

Mütəxəssislər bambukdan hazırlanmış mətbəx əşyalarının sağlamlıq və gigiyenik baxımdan olduqca əlverişli olduğunu bildirir. Deyilənə görə, keçmişdə bambuk qablardan istifadə edilən evlər hər zaman digərlərinə nisbətən daha zəngin və isti hesab edilib. Mütəxəssislərin bildirdiyinə görə, bambukun elə bir təsiri var ki, ondan istifadə edən insanlar sağlam ruha sahib olar, onun hüzurverici təsirini hiss edər və yaşama enerjiləri yüksələrmiş. Üstəlik, bu qablarda saxlanılan meyvə və tərəvəzlər öz vitaminlərini qoruyaraq uzun müddət təzə qala bilir.

**"Həzi Aslanov" metro stansiyası yaxınlığında bu cür bambukdan hazırlanmış qabların satıldığı mağaza satıcısı Aynur Quliyeva hazırda xanımların daha çox bu qablarla maraqlandığını dedi:** "Bizdə müxtəlif materialdan hazırlanmış bahalı qablar var. Məsələn, bir qabımız var ki, o, qızıl suyuna salınıb. Bu cür qabların qiyməti çox bahadır. Məsələn, kiçik bir konfet qabı 80 manatdır. Bunu alanda tək bir qabla kifayətlənmirlər. Gərək dəst alınsın. Məsələn, meyvə qabı, şirniyyat qabı və sairə. Bunların hər birinin qiyməti fərqlidir ki, bu da haradasa 400-500 manata gəlib çıxır. Əvvəllər gündəlik istifadədə adi saxsı qablara daha çox üstünlük verilirdisə, indi bambukdan hazırlanmış qablar daha çox satılır. Görünüşünə görə də fərqli və göz oxşayan bu qabların qiyməti müxtəlifdir. Məsələn, şirniyyat qoymaq üçün qabın dizaynına, formasına görə bir ədədi 17-25 manat arasında satılır. Bir ədəd boşqab isə 8-10 manatdır".



Satıcının dediyinə görə, bu qablar nə qədər suyun altında qalsa da şişmir, çatlamır, rəngi qaralmır. Qabların Azərbaycana Çindən gətirildiyini deyən satıcı Azərbaycanda da bəzi ustalar tərəfindən bu cür qabların hazırlandığını bildirdi. Doğrudan vitrinə düzülmüş bir birindən gözəl və fərqli dizayna məxsus bu qabların yanından etinasız ötmək mümkün olmur. Ancaq bu qablardan alarkən diqqətli olmaq lazımdır. Çünki bambuk adı ilə digər ağaclardan hazırlanmış qablar da sizə satıla bilər. Bunu ayırd edə bilmək isə olduqca sadədir. Bambuk liflərinin rəngi daha çox sarı rəngə çalır. Alıcılar bilməlidir ki, ağ rəngdə olan bambuk qablar "ağartma" prosesindən keçdiyi üçün öz təbiiliyini itirmiş olur. Buna görə də ağ rəngdə olan bu qabları almaq məsləhət görülmür.

Qeyd edək ki, bambuk böyümə prosesi çox qəribə olan bir bitkidir. Çinlilər bunu "həyat ağacı" da adlandırırlar. Bu bitkinin toxumu əkilir, 5 il dalbadal sulanaraq gübrələndikdən sonra 5-ci ilin sonuna yaxın yaşıllaşmağa başlayır və 6 həftəyə kimi bambukun boyu 27 metrə çata bilir. Buna görə də bambuk dünyanın ən sürətli böyüyən bitkisidir. Bu bitki digərlərinə nisbətən ətrafa 35 faiz daha çox oksigen verir. Bambuk bakteriyaları yox edir və onların yaranmasının qarşısını alır. Bambukdan gündoğan ölkələrdə yalnız mətbəxdə deyil, bir çox başqa məqsədlər, məsələn, stol, divarlarda şəkil çərçivələri və s. üçün də istifadə edilir. Bambukdan hazırlanan qablar Azərbaycanda yenicə dəbdə olsa da, artıq bir çox ölkələrdə bundan istifadə uzun zamanlardır ki, var. Misal üçün, İndoneziyalılar bambukdan birdəfəlik istifadə üçün tavalar düzəldirlər. Brazilyada isə bunun bəzi növlərindən turşular hazırlanır. Bambuk bir sıra ölkələrdə ənənəvi tibdə istifadə edilir. Bundan başqa, qədim zamanlarda bambukdan cəza vasitəsi kimi də istifadə ediblər. Məsələn, Şərq ölkələrində ölüm cəzasına məhkum edilmiş şəxsləri təzə cücərən bambukların üzərinə uzadıb bağlayıblar. Çünki bambuk boy atdıqca qarşısındakı istənilən maneəni deşib keçir və boy atmağa davam edir. Bu sehrli bitkidən yalnız qablar yox, saplar, dəsmallar, corablar və geyimlər də hazırlanır.





❑ **Günel MANAFLI, "Yeni Müsavat"**
**Fotolar müəllifindir**

Yeni MÜSAVAT
Son səhifə
N 74 (6963) 7 aprel 2018

# Anasını 3 il soyuducuda saxladı

Hindistanda bir nəfər anasının cəsədini 3 il boyunca soyuducuda saxlayıb. Evə gələn polislərə soyuducuda - dondurucu dolabda başqa bədən hissələrinin də olduğunu görüblər. Gəncin anasının yenidən doğulacağına inandığını deyib. Polis Kolkata şəhərində Subhabrata Majumdarın 2015-ci ildə ölən anasının kimyəvi maddələrlə mumiyalandığını və evinin zirzəmisindəki böyük bir dondurucuda saxladığını açıqlayıb. Telefonla aldıqları bir müraciət əsasında evə hücum etdiklərini söyləyən polis "Qadının meyitini böyük bir dondurucuda tapdıq. Meyit bəzi kimyəvi maddələrlə mühafizə edilmişdi" dedi. Dondurucuda müxtəlif bədən parçalarının olduğunu qeyd edən polis bu şəxsin dəri sektorunda çalışmasını da nəzərə alıb. Polisin dediyinə görə, şübhəli şəxs cəsədi mumiyalamaq üçün lazımi kimyəvi maddələrə çatımlılığına imkan yaradıb.







## Arıq vitrin manekenləri valideynləri qəzəbləndirdi

"Topshop" geyim mağazası şəbəkəsi Böyük Britaniyada ciddi etiraza səbəb olub. Bu barədə lenta.ru saytı "The Daily Telegraph"a istinadən xəbər verib. İnformasiyaya görə, etiraza səbəb olan məqam mağazanın vitrinlərində olduqca arıq manekenlərin olmasıdır. Bu problemə diqqəti cəlb edən şəxs isə britaniyalı Zoi Meyson olub. O, bununla bağlı etirazını sosial şəbəkədəki statusunda bildirib. Qadın bildirib ki, onun 15 yaşlı qızı mağazanın vitrinində qeyri-adi dərəcədə arıq manekenləri görəndə özünü pis hiss edib: "Mənim qızım ondan sonra depressiyaya girdi və dedi ki, "bir çox rəfiqələrimin özlərini kök hesab etməsi və ya bədənlərini bəyənməməsi də bu cür hallara görədir".

Sözügedən status yüzlərlə layk yığıb və britaniyalı anaya öz təəssüfünü bildirənlər də çox olub. Statusa şərh yazanların böyük əksəriyyəti vitrinlərdəki manekenlərin anoreksiyadan əziyyət çəkdiyini bildirib. Bəziləri isə bildirib ki, ümumiyyətlə, həmin manekenlər aclıqdan əziyyət çəkənlərə bənzəyirlər: "Bu, bir qız üçün heç də yaxşı görüntü deyil. Bu cür nümunələri yığışdırmaq lazımdır".

# Çinli qadın başında qayçı ilə xəstəxanaya gəldi

Çin sakini başına qayçı batmış halda özü xəstəxanaya gəlməyə və uğurlu bir əməliyyat keçirməyə nail olub. Lenta.ru saytının xəbərinə görə, olay Şen Syaoin adlı qadın öz evinin bağında yarpaq yığarkən baş verib. 57 yaşlı qadın yeyilməli olan yarpaqları yığmaq üçün bağ qayçısını bambuk ağacına birləşdirib. Amma ehtiyatsızlıq üzündən ağacın budağı qırılıb və qayçı birbaşa qadının başına düşüb. Çinli qadın buna baxmayaraq, özünə nəzarəti itirməyib və ailəsi ilə birgə başında qayçı ilə xəstəxanaya gedib. Həkimlər onu öncə rentgen aparatına göndəriblər. Orada da məlum olub ki, qayçı dörd santimetr dərinliyinə qədər xəstənin başına girib və beyin örtüyünü zədələyib. Amma bununla belə, bu, qadının həyatında ciddi problem yaratmayıb. Çinli qadının yeganə şikayəti isə daim yuxulu olması və hissiyyatının itirilməsi ilə bağlı olub. Qadının başından qayçını tam götürmək üçün iki əməliyyat lazım gəlib.





## 4-cü mərtəbədən yıxılan qarı sağ qaldı

97 yaşlı Mariya Artyomova mənzilinin pəncərəsini açaraq şüşəni yumaq istəyəndə yıxılıb və 4-cü mərtəbədən düşüb. Lenta.ru saytının xəbərinə görə, yaşının çoxluğuna baxmayaraq, çox qıvraq olan qarı pəncərənin aşağısındakı kondisionerin kronşteynindən yapışıb sallaşıb və yardıma adam çağırmağa başlayıb. Hadisə yerinə gəlmiş polis və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları iki qrupa bölünərək qarını xilas edənədək Artyomova 25 dəqiqə 10 metr hündürlükdə asılı qalıb. Sonucda 2 polis və 2 xilasedici qarını dartaraq mənzilə çıxarıblar. Həkim müayinəsi göstərib ki, Artyomova şokda olsa da, onun zədə və ya travmaları yoxdur.





**QOÇ** - Yorulmaq bilmədən çalışın ki, digər işləriniz də sürətlənsin. Fəaliyyətlə bahəm, münasibətlər sisteminə də fikir verməlisiniz. Əmin olmadığınız hansısa məsələ barədə riskə getməyin.

**BUĞA** - Hər məsələdə müəmma axtarmayın. Bütün addımlarınızı reallığa uyğun tərzdə atın. Gün ərzində sağlamlığınıza diqqəti artırın. Bələd olmadığınız heç bir işə qol qoymayın.

**ƏKİZLƏR** - Davranışlarınızı elə tənzimləyin ki, kiminsə gözündə kiçilməyəsiniz. Əgər kimlərəsə ürəyinizdən keçən müsbət fikirləri demək istəyirsinizsə, qətiyyən tərəddüd etməyin. Qidanıza fikir verin.

**XƏRÇƏNG** - Astroloji göstəricilər maraqlı bir mənzərə yaşayacağınızı proqnozlaşdırır. Həm hadisələr, həm də görüşdüyünüz adamlar sizin üçün əhəmiyyətli ola bilər. Amma sağlamlığınızı qorumalısınız.

**ŞİR** - İş müstəvisində yeni layihələrə imza atmaq istəyirsinizsə, bu gündən yaxşısını tapmayacaqsınız. Odur ki, bütün gücünüzü ortalığa qoymalı, boşuna vaxt itirməməlisiniz. Uzaq səfərə çıxmayın.

**QIZ** - Ətrafınızda baş verən proseslərdən sizə heç bir zərər gəlməyəcək, əksinə bəzi mövqelərinizə bir az da yaxınlaşacaqsınız. Bugünkü danışıqlardan imtina etməyin, çox pul xərcləməyin.

**TƏRƏZİ** - Naharaqədərki vaxtı səbrlə başa vursanız, hər hansı konfliktə getməsəniz, qarşınızda duran bu tarix sizi xeyli məmnun edəcək. Fəaliyyətinizdə müsbət dönüşlər də mümkündür.

**ƏQRƏB** - Bəzi gərginliklərdən keçməli olsanız da, risk etməməklə hər hansı zərərlə üzləşməyəcəksiniz. İnsanlarla, xüsusən də müdiriyyətlə ehtiyatlı davranın, kimlərinsə özəl həyatına qarışmayın.

**OXATAN** - Qarşınızda təzadlı bir gün durur. İştirakçısı olduğunuz proseslər ən müxtəlif istiqamətlərdə cərəyan edəcək. Situasiyaya uyğun davranmaqla uğurları cəlb edə bilərsiniz.

**OĞLAQ** - Daxili tərəddüdləriniz bu təqvimdən etibarən əriməyə başlayacaq. Sizi narahat edən əksər müşküllərə işıq düşəcək. Bu səbəbdən də hər bir şansa hazır olmalısınız. Sevgi hisslərinizi gizlətməyin.

**SUTÖKƏN** - Bu gün üzərinizə düşən başlıca vəzifə qarşılıqlı münasibətləri qaydasına salmaqdır. Ünsiyyətdə olduğunuz hər kəslə anlaşıqlı davranın. Günün ikinci yarısı qazanmaq ehtimalınız da var.

**BALIQLAR** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Vaxt tapıb ziyarətə baş çəkin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən iri ilanı



Amerikanın Florida ştatında uzunluğu 5 metr, çəkisi isə 65 kilo olan pitonu tutublar. Bu barədə WPTV xəbər verib. Bu nəhəng pitonu sözügedən sahə üzrə ixtisaslaşan Nikolas Beynos və Leonardo Sançes yaxalayıblar. Onlar Florida ştatında piton ovçuları arasındakı yarışlarda iştirak edirlər. Öncə ilanı Sançez fərq edib: "Mən öncə "piton" deyə qışqırmağa başladım. Maşından hoppananda gördüm ki, iri bir piton suyun qırağındakı ağacların yanında dayanıb". İlan ovçularından biri onu quyruğundan yaxalayıb, digəri isə başından. İlan gizlənməyə çalışsa da, iki kişi onu beş dəqiqə ərzində yaxalayıb, torbaya salmağı və avtomobilə atmağı başarıblar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
Lisenziya N: B 114
SAYI: 5.100